Cəmil Tağıyev

XAN QIZI...

Cəmil TAĞIYEV

AZ-1044493

XAN QIZI...

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı – 2011

Redaktoru: Vasif SÜLEYMAN

Cəmil TAĞIYEV.
"XAN QIZI..."
"Şur" 2011, 120 səh.

"Xan qızı..." Cəmil Tağıyevin "Təlimi rus dilində olan orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi məsələləri" və "Yaddaşlardan yığılan kitab"dan sonra oxucularla üçüncü görüşüdür.

Kitabda XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına bir daha nəzər salınır.

83. 3. AZ (2)

F $\frac{4702600000}{(032\text{-}05)}$ 01-11

GİRİŞ

Varıdı sinədə dərdü-qəmi, nihan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtahan, ölürəm.
(X. Natəvan)

Dünya ədəbiyyatının çox zəngin tərkib hissələrindən olan Azərbaycan ədəbiyyatı insanlığa böyük dahilər bəxş etmişdir. Digər dünya xalqlarının yaratdığı ədəbiyyatla, yetirdiyi sənətkarlarla müqayisədə Azərbaycan ədəbiyyatının hamımızın öyünə biləcəyimiz bir nöqtədə dayandığını görür və bununla fəxr edirik. Sadəcə, bir faktı ürək ağrısı ilə qeyd etmək lazımdır ki, bizim ədəbi irsimizə, ədəbi korifeylərimizin yaradıcılığına, yaşantısına və düşüncələrinə, deyək ki, Şekspir, Puşkin, Düma, Balzak və başqaları qədər işıq salınmayıb. Hansı səbəbdən olmasından asılı olmayaraq, bu biganəliyin içində biz öz mənəvi təpərimizi layiq olduğu ucalığa daşıya bilməmişik. Bunun da bir səbəbi, bəlkə də, həmin sənətkarların həyat və yaradıcılığını özümüzün tam araşdıra bilməməyimizdir. Çox vaxt haqqında ağızdolusu danışdıqlarımızın adlarını icmallarda çəkməklə kifayətlənmişik. Kimisə günahlandırmaq fikrindən uzağıq. Amma ədəbiyyat tarixi ilə bağlı mənbələrdə haqqı özünə qaytarılmayan, adları ümumi sıralanmalarda çəkilən o qədər böyük sənətkarlarımız var ki… Görünür zaman-zaman yazılanlar bizim mədəni sərvətlərimizin bolluğu fonunda hələ çox azdır.

Məsələn, XIX əsrin ikinci yarısında Qarabağın böyük Cavanşirlər nəslindən olan Xurşidbanu Natəvan yaşayıb-yaradıb və həm insanlığı, həm düşüncələri, həm də özünəməxsus dərdləri ilə xalqın yaddaşında əbədiləşib. İnsan qəlbinin zərif və mürəkkəb hisslərini qəzəllərində dolğunluqla əks etdirən Natəvanı olduğu kimi tədqiq edə bilməsək də, keçən yüzilliklərdən gözəl Natəvanın səsi, nəfəsi duyulur. O, ən çox sevilən, ən çox mübahisələrə səbəb olan, lakin həyat və yaradıcılığının öyrənilməsi vacib sayılan sənətkarlardan biridir. Xurşidbanu Natəvan XIX əsrdə öz adı, soyadı, yaxın qohumları ilə fəxr edən bir şairə xanım olmuşdur və onun həm şəxsiyyəti, həm poetik irsi öyrənilməlidir. Bütün yaradıcılığı küll halında gəlib zəmanəmizə çatmasa da, əlimizdə olanlar onun böyük yaradıcılıq yolu keçdiyini göstərir.

«Nəcib xasiyyətlərə malik olan Natəvan yoxsulların və kasıbların qayğısına qalırdı; Qarabağda kasıb ailələrə maddi kömək göstərirdi, Şuşanın abadlığı yolunda çalışırdı. 1872-ci ildə o, yeddi ı kilometrlik bir məsafədən Şuşaya su kəməri çəkdirərək, şəhərin əhalisini su ilə təmin etmişdi. Bu su kəməri indi də «Xan qızı bulağı» adlanır.

Dərin bir kədərlə yazdığı «Olaydı» rədifli qəzəlində şairə üzünü allaha tutaraq, «nə üçün bu aləmi və məni yaradıb da hicr atəşinə odlandırdın», - deyə öz taleyindən acı-acı şikayətlənir. Onun «Neçin gəlməz», «Ölürəm» rədifli qəzəllərində də eyni ruh hakimdir.

Həyat və səadət eşqi, ayrılıq dərdi, vüsal arzusu Natəvanın şeirlərinin əsas motivləridir. Onun şeirlərinin, demək olar ki, hər misrasında müsibət içində olan ananın odlu qəlbi çırpınır.

Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtahan, ölürəm.
Fəraqdan gecələr yatmaram səbahə kimi,
Xəyali-zülfünə bağlı gedibdi can, ölürəm.

(«Azərbaycan ədəbiyyatı tarixi». Üç cilddə, II cild. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. Bakı 1960)

O, bizdən bir neçə əsr öncə yaşasa da duyğuları, arzuları bu günümüzə, sabahımıza baş alan, böyük fikirləri ilə həmişə çağdaşımıza çevrilən Xan qızı Natəvandır. Onun keçdiyi həyat yolları, xalq üçün qurub-yaratdığı işləri bütün yönləri ilə oxucularımıza çatdırmaq hər bir yazarın arzusudur.

Natəvanın şeir nəfəsi təmiz, ətirli, ürəklərə hopandır. O, poeziyamıza bir qadın ürəyinin ehtiraslarını gətirmişdir. Zahirən kiçik görünən poetik irsinin daxili üfüqləri daha hüdudsuzdur. Şeirlərində qəhqəhə çəkən, hıçqıran, bəzən mübariz, bəzən də ümidsizliyə qapılan bir şairə xanımın nəfəsi duyulur.

Onun ürəyinin və dilinin açıqlığı, əxlaqı haqqında bir sıra fərziyyələrin, qeybətlərin meydana çıxmasına səbəb olmuşdur. Hər bir insan kimi Natəvan da günlərin birində əcəl şərbətini içib, fani dünyadan köçüb. Bu qüdrətli şairin yaşamından sonrakı taleyinin uğurlu və uğursuzluqları haqda bəzi məqamları, yeri gəldikcə, oxucularımıza çatdırmağı ən şərəfli borc bilirəm.

Onu da xatırladaq ki, ədəbi irsini tam öyrənə bilmədiyimiz Xan qızı Natəvan Cavanşirlər nəslindən olan tək yaradıcı şəxsiyyət deyildir. Araşdırdığımız mənbələrdə və tədqiqat əsərlərində bunun əyani təsdiqinə əsas verən xeyli materiala rastlaşdıq (İrəlidə bu nəsildən olmuş yazarları bir daha xatırlayacağıq).

Həmin nəslin yadigarlarından olan, ötən əsrin ortalarında dünyasını dəyişən Xan qızı Natəvanın ata tərəfdən əmi nəticəsi Geysu xanım Cavadbəy qızı ilə zamanında apardığımız söhbətlər bizi bir daha Natəvan və onun mənsub olduğu nəslin yaradıcılarına qaytardı. Bəlkə də bu kitabın yazılmasının bir səbəbi də budur.

Geysu xanım Cavadbəy qızı Xurşidbanu Natəvanın həyatı və yaradıcılığı haqqında çox danışardı. O vaxtlar yazılı qeydlər aparmadığımdan, sadəcə yaddaşımın saxlaya bildiklərini oxucularla bölüşmək istəyirəm. Onun danışdıqları arasında elm aləmində mübahisə yarada biləcək məqamlar da var idi. Amma indi hər hansı mübahisə açmadan bir şeyi xatırlatmaq istəyirəm.

Geysu xanım danışırdı ki, Xurşidbanu özünə «Natəvan» yox, «Natamam» təxəllüsü götürmüşdü və bu təxəllüs onun həm yaşadığı üzüntülərə, həm də bu üzüntüləri özündə əks etdirən yaradıcılığına çox uyğun idi. Bir oğlunun vaxtsız dünyadan köçməsi, digərinin ondan ayrı düşməsi, ana bir ata ayrı övladların mal, mülk üstündə bir-birinə düşmən kəsilməsi, həyata keçirmək istədiklərini başa çatdıra bilməməsi Xan qızının taleyində bir natamamlıq çevrəsi yaratmışdı. Bu çevrədə ürəyi yaratmaq eşqi ilə döyünən bir qadının bütün arzularının yarımçıq qalması nəticəsində «Natamam» təxəllüsü ilə qəzəllər yazması mümkün idi. Onun Natəvanın yarımçıq taleli bir qadın, üzüntülər burulğanında əziyyət çəkən şair olması haqqında danışdıqlarını şair öz əsərlərində də qələmə alır. Qəzəllərindən aşağıda gətirdiyimiz örnəklərdən də bunu görmək olar:

Sabahadək oturub çəkmişəm cəfalərini,
Boyum bərabərisən indi, əlaman, getmə!

Nə səbrü taqətim qaldı, nə əqlü huş bilmərrə,
Onunçün çeşmi-pürxunim olur giryan, xudahafiz!

Nə Misir olaydı, nə Kənan, nə həsrəti-Yəqub,
Nə xar olub qəmi-hicranda, qərqi-matəm olaydı!

Sən Allah, ey qara torpaq, onu əziz saxla!
Odur mənim gözümün nuru, ey məzar, əfsus!

Səsləndi Natəvanə ki, ərbabı-qəm tamam,
Hali-Fənayə cəm olub, elcarı ağlasın!

Bir daha qeyd etmək istəyirəm ki, bunlar mübahisə açmaq üçün yox, Natəvan kimi bir əvəzsiz şairin həyat hekayəsinin daha da dəqiq araşdırılması baxımından diqqətəlayiqdir. Digər bir tərəfdən «Natamam»ın ifadə etdiyi məna da müəyyən baxımdan «Natəvan» sözünün izahı, mənası ilə üst-üstə düşür. Məlumdur ki, «Natəvan» mənşəcə fars sözü ölub, iqtidarsız, gücsüz, zəif, mənalarında işlənir: **«Natəvan»** - sifət və zərf (fars) zəif, taqətsiz, gücsüz, iqtidarsız, xəstə.

Düşmüşəm bir halə sənsiz natəvanü zar olub,
Kim, əcəl yanimdən ayrılmaz mənə qəmxar olub.
(Kişvəri)

Bu qəm ki var bənim cani-natəvanimdə,
Tamam xalq bəna olsa qəmküsar azdır.
(Qövsi)

Xoş ol zaman ki, ol məh ilə həmzəban olam,
Hər sözdə bir dilim tutulub natəvan olam.
(Şirvani)

(«Azərbaycan dilinin izahlı lüğəti». III cild. «Elm» nəşriyyatı. Bakı -1983)

Böyük türkoloq alim Tofiq Hacıyev «Azərbaycan ədəbi dili tarixində Füzuli» («Azərbaycan» jurnalı. 2008 № 1) məqaləsində bu «natəvan» sözünün məna çalarlarına toxunur: «Bu gün anlaşılmayan adları da tarixən əcdadımız anlamışdır. Bu gün özlüyündə anlaşılmayan ərəb və ya fars sözü müəyyən ifadə daxilində rahatca qavranır. Məsələn, ”övc” (ən yüksək nöqtə) şıvədə "əvc eləmək" (öhdəsindən gəlmək) ifadəsində işlənir (Cəbrayıl şıvəsi), “yeksan” fars sözünün "bərabər, bir səviyyədə" olmaq mənası bılinmir, ancaq xarabalığa dönmüş bir tıkinti üçün işlədılən "yerlə-yeksan olmaq" ifadəsində başa düşülür (hətta şivələrımizdə xalq dilinə məxsus metatezaya uğrayır: yeskan); “natəvan” (gücsüz, zəif) - bilinmir, tavanasız bılınir».

«Təvan» («tavan) güclü, qüvvətli, varlı, dövlətli mənalarında işlənir və ərəb mənşəli «na» şəkilçisini qəbul etməklə əks məna verən söz yaranır.

Başqa bir anlamda «tavan» – əhval deməkdir. Başından min-bir müsibət keçən, arzuları yarımçıq qalanın əhvalı necə olmalıydı…

«Natəvan» sözünün evsiz, köməksiz, çarəsiz, taqətsiz, mənalarında işləndiyini də nəzərə alsaq, Xan qızının zamanında həm «Natəvan», həm də «Natamam» imzası ilə yazdığının mümkünlüyü ilə razılaşmamaq olmur. Göründüyü kimi, Xan qızının təxəllüsünün müxtəlif ifadə formalı izahları olsa da, nəticə etibarı ilə arzuları yarımçıq qalan, yaşantıları tamamlayan anlamına gəlir. Bu yerdə

Geysu xanımın «Natamam» təxəllüsü ilə bağlı dedikləri yada düşür. Belə məlum olur ki, atası Mehdiqulu xandan aldığı qızılla dolu sandığın ağzını açaraq, qayaları yardırıb 7 kilometrlikdən Şuşaya içməli su çəkdirmiş, çarhovuz tikdirmiş, hətta oradan su içənlərə hədiyyələr də vermişdir.

Ümummilli lider Heydər Əliyev 18 iyun 2001-ci ildə «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» tarixi bir Fərman imzaladı. Fərmana müvafiq olaraq, Azərbaycanın dövlət müstəqilliyinin başlıca rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiq və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin öyrənilməsi, elmi tədqiqinin fəallaşdırılması, dilimizin cəmiyyətdə tətbiq dairəsinin genişləndirilməsi və bu işə nəzarətin gücləndirilməsi məqsədilə ölkədə Azərbaycan dilində çap olunan qəzet, jurnal, bülleten, kitab və digər çap məhsullarının istehsalının 2001-ci il avqustun 1-dən bütövlükdə latın qrafikasına keçməsi təmin edildi.

Latın qrafikalı Azərbaycan əlifbfsına keçəndən sonra dövlət səviyyəsində mədəniyyət tariximizə öz möhürünü vuran sənətkarların əsərləri yenidən nəşr olunmağa başlandı. Ancaq bunlar hələ çox azdır. Yeni nəslin tariximizin və ədəbiyyatımızın bu məqamları ilə bağlı bilgilərini daha da artırmaq üçün dühalarımızın həyat və yaradıcılığına bacardığımız qədər yenidən ayna tutmalıyıq. Bir çox şair və yazıçılarımız kimi X. Natəvanın həyatına yenidən nəzər salmağa da çox ehtiyac var. Bu baxımdan hörmətli Bəylər Məmmədova dərin hörmət və ehtiramımı bildirməklə, onun araşdırmalarından bir sıra örnəkləri yenidən oxucuların diqqətinə çatdırmaqda heç bir qəbahət görmürəm.

ƏZABLAR ŞAİRİ

Geysu xanım Cavadbəy qızı Xurşidbanu Natəvanı «Əzablar şairi» adlandırırdı. Bunu onun haqqında yazılı ədəbiyyatda olan mənbələr və haqqında ağızdan-ağıza keçən söyləmələr də sübut edir. Bu baxımdan Xan qızının hansı mühitdə böyüyüb boya-başa çatması, doğmaları, yaxın ətrafı, haqqında bilgilərimizi, təkrar da olsa, təzələməyə ehtiyac var.

Beləliklə, bizi Natəvan dünyasına aparan cığırlardan biri - həyatı haqqında.

O, klassik Azərbaycan poeziyasının tarixində fəxri yerlərdən birini tutmuş görkəmli xanım şairədir. O, bu gün düşmən tapdağı altında inləyən, hamımızın yaralı yeri Qarabağımızın əbədi-əzəli

paytaxtı Şuşada 1832-ci il 15 avqust tarixində xan ailəsində təvəllüd tapmışdır. Ailədə «dürri yekta», xalq arasında isə «Xan qızı» ləqəbi ilə çağırılmışdır. Onun atası Qarabağın sonuncu hakimi Mehdiquluxan Cavanşir, anası isə Gəncə hakimi Cavad xanın nəticəsi Bədircahan bəyim olmuşdur.

Xan qızı kiçik yaşlarından saray tərbiyəsi görmüş, xüsusi tərbiyəçilərdən, mirzələrdən dərs almışdır. Hələ kiçik yaşlarında oxuyub-yazmağı, din əvə dünyəvi bilikləri, habelə klassik poeziyanı öyrənmiş və bir tərəfdən yüksək ədəb-ərkanına, biliyinə, savadına, digər tərəfdən ictimai mənşəyinə görə Qarabağda «Xan qızı» ləqəbi ilə tanınmışdır. Onun yaratdığı əsərlərdə şərq qanunlarının, fikir və düşüncə təzinin, xalq həyatının, el dərdinin, kədərinin bir hissəsi yaşamaqdadır.

XIX əsrdə Azərbaycanda bir tərəfdən Q.B.Zakirin, M.F.Axundovun və digərlərinin səsləri ucaldığı kimi, digər tərəfdən də Xurşidbanunun neydən həzin iniltisi eşidilməkdədir. Onun real, canlı, romantik ruhlu şeirləri bir növ Azərbaycan qadınlarının illərlə məxfi qalmış hiss-həyəcanlarının tərcümanı olmuşdur.

Şair öz ana dili ilə yanaşı ərəb-fars dillərini də mükəmməl öyrənmiş, məktəb yaşlarından şeir yazmağa başlamış, mütaliyəyə böyük həvəs göstərmişdir. O, 1872-ci ildə təsis edilmiş " Məclisi-üns" (Dostluq məclisi) ünvanlı şairlər məclisinin yaradıcısı olmuş, qüdrətli qələmi ilə bütün Azərbaycan ədəbi məclisinin inkişafına böyük təsir göstərmiş, xalqa, vətənə xidməti hər şeydən uca tutmuşdur. 1873-cü ildə Şuşandan yeddi kilometr aralıda olan Sarıbaba təpəsindən su mənbəyindən şəhərə şəhərə içməli sərin suyun çəkilməsi üçün yüz min manat qızıl pul xərcləməklə şəhər sakinlərinin yüz illik arzusunu yerinə yetirib bulaq, su ambarı, hamam, buzxana tikdirmiş və park saldırmış, bir sıra xeyirxah tədbirlərə qoşulmuş, beynəlxalq sərgilərdə iştirak etmişdir.

Araz çayından Ağcabədiyə çəkilən su arxı, Bakıdan Şıx kəndinə gedən baş yol onun adı ilə bağlıdır. Onlarca gəncin xarici şəhərlərdə təhsilini davam etdirməsinə maddi yardım göstərmiş, məktəblərin açılması üçün xüsusi vəsait ayırmışdır.

Şair Həsən Yüzbaşı Natəvanın xeyirxah işlərini obrazlı ifadələrlə tərənnüm edərək, onu meyə, Şuşanı isə piyaləyə bənzətmiş və meyə üstünlük qazandırmışdır **(«Qarabağın bamәzə adamları» kitabından 1992-ci il).**

Sənsiz nədi şişənin nəmudu,
Gəlməz nəzərə onun vücudu?!

Mey olmasa, şişə adlanırmı,
Bir kəs mütləqə onu tanrımı?!
Gülşən gül ilə olur abad,
Gül olmasa kim eylər onu yad?

Xanlığın ləğvindən sonra ailəyə üz verən pərişanlıq onun şeirlərinə də bədbinlik və nigarançılıq gətirmişdir. Atası Mehdiqulu xan 1845-ci ilin may ayında Ağcabədidəki malikanəsində, ov edərkən qəflətən atdan yıxılıb öləndə Xurşidbanunun 13 yaşı vardı. Bundan öz xeyirləri üçün istifadə edən zadəganlar, xan ailəsi ilə qohum olmaq iddiasına düşərək Bədircahan bəyimlə Xurşidbanuya rahatlıq vermirlər.Bir tərəfdən ixtiyarlarında olan torpaqlarının bir hissəsini müxtəlif bəhanələrlə hökumət onlardan alıb dövlət xəzinəsinə qatır. Digər tərəfdən xan qızının nişanlanması tədbiri getdikcə ciddiləşir. Qafqaz canişini Vorontsovun təkidi ilə o, 1850-ci ildə uzun çəkişmələrdən və təziqlərdən sonra Dağıstan nücavələrindən sayılan Xasay xan Usmiyevə ərə gedir. Xasay xan Usmiyev (1823-1866) milliyətcə qumuqdur, qədim nəslə mənsubdur. Bir tərəfdən ərəb fatehlərinin, digər tərəfdən də Çingiz xanın Ləzgi tayfasının törəməsidir. «Ləzgi», «lak» sözləri ləkzi məfhumunun təhrif olunmuş formasıdır. Xasay xan 1844-1854-ci illərdə general-mayor rütbəsində Qafqaz canişini M.İ.Vorontsovun şəxsi yaveri olmuş, milis proporşikliyindən polkovnik rütbəsinə qədər həyat yolu keçmişdir.

Onların bu izdivacı haqda belə bir ehtimal vardır ki M.İ.Vorontsovun şəxsi yavari Xasay bəy Tiflisdə onlara mülk iddiasında köməklik göstərmiş və bunun müqabilində Xurşidbanu ilə evlənməyi təklif etmişdir. 1850-ci ilin payızında Xasay bəy Şuşaya gəlib toy etmiş və Xurşidbanunu Dağıstana, doğma kəndinə, oradan da Tiflisə aparmışdır. Tiflis həyatı şairənin dünya görüşünün zənginləşməsinə, təfəkkür dairəsinin genişlənməsinə böyük təsir göstərmişdir. Şəhərin səfalı yerləri, təbii mənzərələri ona xoş gəlsədə, burada yaşamaq, çox vaxtlar tək qaldığı üçün qəriblik çəkir.

1852-ci ildə şairə xəstələnir və həkimlərin məsləhəti ilə vətəni Şuşaya qayıdır. Sağaldıqdan sonra 1854-cü ildə əri ilə birlikdə Dağıstana, Şirvana və Bakıya səyahətə çıxır. 1855-1856-cı illərdə oğlu Mehdiqulu və qızı Fatmabikə (Xanbikə) anadan olurlar.
1858-ci ildə Xan qızı ikinci dəfə ailəsi ilə birlikdə Bakıya gəlir, şəhər hakimi Piquliyevskinin evində qonaq qalarkən məhşur fransız yazıçısı Aleksandr Duma (Ata) ilə görüşüb, tanış olurlar. A.Duma ilə Xasay xan arasında, səmimi dostluq əlaqəsi yaranır. Yazıçı

özünün "Qafqaza səyahət" kitabında bu ailənin adın hörmət hisslə yad edir: "Mənim dəvət olunduğum evdəki məclisdə iki tatar (azərbaycanlı-Z.Ə.) knyaz qadını və kiçiyinin əri iştirak edirdilər. Açıq deməliyəm ki, onlar gəlişimizi səbirsizliklə gözlədiklərindən, bizi sevinclə qarşıladılar. Knyaz qadınlarından biri Qarbağın son hakimi Mehdiqulu xanın arvadı, digəri onun qızı idi. Anasına 40, qızına isə 20 yaş vermək olardı. Hər ikisi milli paltar geymişdi. Qızı bu bahalı, həm də zərif paltarda olduqca cazibədar görünürdü. Öz anası kimi geyinmiş 3-4 yaşlı qız uşağı təəccüb doğuran iri qara gözləri ilə bizə baxırdı. Həmçinin 5-6 yaşlı oğlan nənəsinin dizi üstündə oturub, instinktiv olaraq hər cür təsadüfə hazır vəziyyətdə öz xəncərinin dəstəyindən yapışmışdı. Hər iki tərəfi iti olan həqiqi xəncəri fransız ana heç vaxt uşağının əlinə verməz. Heyrət edirəm ki, tatar (azərbaycanlı-Z.Ə.) analar üçün bu bir uşaq oyuncağı idi. " **(A.Düma. Kavkaz Puteşestvie Aleksandra Düma. Tiflis, 1861, səh. 285).**

Xan qızı ailəsi ilə birlikdə Bakıdan Şuşaya qayıdır. 1864-cü ildə Xasay xan Şuşada qalmaq istəmədiyindən Xan qızına bildirir və Dağıstana getməyi, orada yaşamağı təklif edir. Xan qızından rədd cavabı aldıqdan sonra ailəsini atıb gedir.

Bu nigahdan əvvəl də, sonra da Xurşidbanuya bəzən cavan, bəzən də yaşlı şahzadələr elçi düşürdü. Onlardan biri də İran şahzadəsi Bəhmən Mirzə idi. Onunla bağlı baş vermiş bir əhvalatda deyilir:

«Dul qalmış Xurşidbanunu almaq üçün Bəhmən Mirzə dəridən-qabıqdan çıxır, hər dəfə də Xan qızının "yox" cavabını alır. Otuza yaxın hərəmi olan bu qadın düşkününün əl çəkmədiyini görən Xan qızı belə bir səhnəcik təşkil etməyi düşünür.

Şuşada Bəhmən Mirzənin qəsri ilə Xan qızının sarayı qarşı-qarşıya dururdu. Şairə çox həssas olduğundan hiss edirdi ki, Bəhmən Mirzə hər səhər tezdən binokl vasitəsilə eyvandan onun yatağına baxır. Bəyim yaşı ötmüş bu qadın düşkününün şəriətdən və ədəbdən kənar bu hərəkətinə son qoymaq üçün münasib bir çarə düşünür. Nəhayət, rəqibə ibrət dərsi vermək üçün, belə bir səhnəcik düzəldir.

Səhər-səhər yataq otağının pəncərəsini açdırır, qapıdakı nökərlərdən birinə tapşırır ki, bu pəncərədən çılpaq sarğısını (arxasını) Bəhmən Mirzənin üzbəüz dayanan qəsrinə tərəf çevrilib dayansın.

Bu səhnəni görən Mirzə hadisədən bir neçə gün sonra öz narazılığını bildirir, Natəvanın qohumlarından birinə şikayətlənir ki, bəs səhər-səhər o, binokl ilə şəhərə tamaşa edən zaman təsadüfdən Xan

qızının yataq otağında biyabırçı bir mənzərə görübmüş. Elə o vaxtdan da Bəhmən Mirzə bu əxlaqdan kənar məşğuliyyətindən əl çəkir» («Qarabağın baməzə adamları» kitabından 1992-ci il).

1869-cu ildə Xurşidbanu Seyid Hüseynlə ailə həyatı qurur. Seyid Hüseyndən beş övladı olur. Onun qızğın yaradıcılıq dövrü də bu illərə təsadüf edir. Xan qızı 1888-ci ildə Gəncəyə gəlir. Orada çar II Nikolayla görüşür, öz əli ilə toxuduğu bir hədiyyəni də çarın arvadına bağışlayır.

Xan qızı oğlu Mir Abbasın ölümündən sonra sağlamlığını itirdiyindən uzun müddət xəstə yatır. Şəxsi münasibətlər, dövrünün haqsızlığı, zalımkarların sitəmi sairi vaxtsız qocaltmış, onu həyat işığına həsrət qoymuşdur. Ağlamaqdan gözlərinin nuru getmiş, bədəni taqətdən düşmüşdür. Nəhayət, 1897-ci il oktyabr ayının 1-də şairənin el üçün döyünən qəlbi dayanır. O, Şuşada vəfat etmişdir. Xan qızının ölümü Qafqazın qabaqcıl, maarifpərvər adamlarını çox kədərləndirmişdir.

Xurşidbanu Natəvan yaradıcılığa 50-ci illərdən ənənəvi şərq mövzusu və şerlərlə başlamışdır. Qəzəllərində məhəbbət, təbiət gözəllikləri ("Gülünə," "Qərənfil", "Bənövşə" və s.) tərənnüm olunmuşdur. On altı yaşlı oğlunun ölümündən sonra Natəvan bədbin ruhlu şeirlər yazmağa başlamışdı ("Ağlaram", "Olaydı", "Getdi", "Sənsiz", "Ölürəm" və s.). Şairənin əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, təşbeh, məcaz və s. bədii vasitələr məharətlə işlənmişdir.

Natəvan həm də istedadlı rəssam olmuşdur. Onun bədii tikmələri "Gül dəftəri"(1886) adlı albomundakı rəsmlər buna sübutdur.

Bədii yaradıcılığa XIX əsrin 50-ci illərindən başlayan Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatında Füzuli ənənələrini davam etdirmişdir. Onun əsərləri əsasən qəzəllərdən ibarətdir. Bu qəzəllərin mərkəzində insanpərvərlik, xeyirxahlıq, səmimi ülfət, dostluq ideyalarının tərənnümü dayanır. "Ey dust", "Xudahafiz" rədifli qəzəllərində o, bir-birini sevən insanlar arasında narazılıq, ayrılıq salmağa cəhd edən xain, yaramaz adamların əməllərin pisləyir.

Natəvanın təbiət gözəlliklərinə həsr etdiyi şeirlərində doğma təbiət gözəllikləri həyat ətri, gülün-çiçəyin rahiyəsi duyulur. XIX əsr Azərbaycan şeirinin lirik qəhrəmanı bədii struktur baxımından Natəvan yaradıcılığında daha da zənginləşir.

Sinəsinə çalın-çarpaz oğul dağı çəkilmiş bu ananı, dünyadan cavan köçmüş övladının ayrılığı yandırır. Onun yarası gecə-gündüz göynəyib sızıldayaraq, ana qəlbinin fəryadına çevrilir. "Yanar canım oğul, daim sızıldayaraq" misrası ilə başlanan qəzəli həmin fəryadın bəddi əksi kimi yaranmışdır. Bu şeirin hər misrasında müsibət içində olan ananın odlu qəlbi çırpınır:

Yanar canım, oğul, daim sənin nari-fərağında,
Necə pərvanələr hər dəm yanar şəmin ayağında.

Gülü-ruhun həvəsilə çıxar əflakə əfqanım,
Odur bülbül nəvasi gül fəraqü iştiyaqında.

O şirin ləblərin şövqü güni-gündən olur əfsun,
Əgər Fərhad tək iki yüz il dolansan hicr dağında,

Sənin hicrin odu, Abbas, dəxi çıxmaz ki, canımdan.
Səməndər tək yanar daim anan, nari-fərağında.

Həyatda oğulsuz yaşayan anaya hər bir dəqiqə ildən ağır görünür. Ana öz səadətini ölməkdə, oğlunun ruhuna, torpağına qarışmaqda görür. Şairənin "Sənsiz" , " Əfsun" , "Getmə" rədifli qəzəlləri oğlu Mir Abbasın ölümü münasibətilə yazılmışdı.

Xurşidbanu Natəvan "Ölürəm" rədifli şeirini də böyük oğlu Mehdiqulu xana həsr etmişdi. Natəvanın şeirləri bədii sənətkarlıq baxımından kamil şeir nümunələridir. İncə mətləbləri, dərin hissləri qüvvətli lirika poetik coşğunluqla cana gətirmək şeirdə ifadə yığcamlığı, fikir əlvanlığı və məna dərinliyi yaratmaq, onun sənətkarlığının başlıca səciyyəsini təyin edir.

Şifahi xalq ədəbiyyatından və klassik irsdən ustalıqla bəhrələnən Natəvan yeri gəldikcə bədii sual, xitab və nidalar işlətməklə lirik qəhrəmanın daxili aləmini, onun hiss və duyğularını, heyət, həyəcan, yalvarış, və təəsüflərini canlı, təsirli əks etdirir. Şeirlərindəki bədii ifadə vasitələri, xüsusi təkrirlər, qoşa qafiyələr, rədiflər onun əsərlərinin bədii təsirini daha da qüvvətləndirir.

Şairin həyatı maraqlı hadisələrlə zəngin idi. Onlardan bəziləri ilə sizləri tanış etmək istəyirəm:

Şuşada tutun təzəcə dəyən vaxtı imiş, Xan qızı balkonda əyləşib təbiəti seyr edirmiş. Bu vaxt əllərində balaca səbətlərdə tut satan kəndli qızlarını görür. Tut almaq məqsədi ilə onları evinə dəvət edir. Kəndli qızları xanımın dəvətindən sevinir, onun təklifini məmnuniyyətlə yerinə yetirib, əllərindəki balaca tut səbətlərini xanıma

təklif edirlər. Bu kəndli qızları xanımın bütün hərəkətlərinə göz qoyurlar. Xanım seçdiyi tut səbətlərindən birini alıb içəri aparanda, nəfsini saxlaya bilməyib, qapının arxasında tutdan bir ovuc götürüb yeyir. Sonra tutu boşqaba töküb, qızların qarşısında tutu bir-bir iynə ilə götürüb yeyir. Qızların onun tut yeməsinə heyranlıqla baxdıqlarını görən Xan qızı sual verir:

- Qızlar, sizlər də tutu iynə ilə yeyirsiniz?

Qızlardan bir diribaşı dərhal cavab verir:

- Xeyir, bəyim, bizlərdə tutu bayaq siz qapının arxasında yediyiniz kimi yeyirlər.

Xurşidbanu həmişə öz malikanələrini ya atla, ya da kareta (tarantac) ilə gəzib yoxlayarmış. Təsadüfdən iki cavan oğlan oba-oba dolanıb papaq satmaqdan qayıdarkən bir ağacın kölgəsində dincəlirlərmiş. Elə bu vaxt Xan qızının kareti onların yanından sürətlə ötüb keçir. Karetanın kimə məxsus olduğunu dostlardan biri, Seyid Hüseyn hiss edir ki, bu kareta Xurşidbanuya aiddir.

Kaş Allahın altında Xan qızı mənim arvadım olaydı. Dostu da onun sözünü zarafat hesab edib soruşur -

- Ə, Xurşidbanu sənin qismətin olsa, mənə nə verərsən? Seyid Hüseyn ciddi tərzdə:

- Sən öl, sənə iki yüz manat bağışlaram. İllər aylar keçir, bir gün gənc oğlan kənddən qayıdarkən Xurşidbanunun evinin altındakı şor su bulağında əl-üzünü yuyub ətəyi ilə siləndə, Xan qızı da eyvandan tərasüb boru ilə ətrafı seyr edirmiş. Birdən gözünə cavan bir oğlan görünür. Tez qulluqçusu Züleyxanı çağırıb tapşırır ki, öyrən gör bu oğlan kimdir, nə sənətin sahibidir? Qulluqçu da çox bilmişin biri olduğundan tezcə bulağa yollanıb, oğlanın kim olduğunu, nə sənət sahibi olduğunu öyrənib Xan qızına məlumat verir:

- Oğlan Şuşalı Seyid Əhmədin oğludur. 35 yaşı var, papaqçılıqla məşğul olur, özü də subaydır. Bu bilgidən sonra Xan qızı axtarıb Seyid Hüseyni tapdırır və onu sarayına dəvət edir. Seyid Hüseyn Xan qızının dəvətini böyük sevinclə qəbul edir. Saraya gəlib ona baş əyib salamlayır. Bəyim oğlanı yaxından görüb səhv etmədiyini başa düşür və cavana buyurur ki, oğlu və qızı üçün papaq gətirsin. Oğlan tapşırığı tez bir zamanda yerinə yetirib, Xan qızının yanına gəlir, O, papaqlara baxıb çox şad olur. Oğlandan soruşur:

- Ailəniz böyükdürmü?

- Xeyr, subayam.

Onun bu yaşa qədər evlənmədiyinin səbəbin soruşanda Seyid Hüseyn:

- Könlümə yatan olmayıb, cavabını verəndə Xan qızı, məni alarsanmı? Seyid Hüseyn bir an susur. Xurşidbanu sualı təkrar edir:

- Alarsanmı?

Seyid Hüseyn utancaq bir halda:

- Bəyim buyurandan sonra mən nə deyə bilərəm. Xan qızı bir amiranə əda ilə sabah axşamüstü libasını geyinib mənim hüzuruma gələrsən. Ertəsi günün axşamı Şuşa qazısı Mirzə Əbdülqasım başda olmaqla şəhərin ən möhtərəm adamları Xurşidbanunun dəvəti ilə saraya təşrif gətirirlər. Bu vaxt Seyid Hüseyn də məclisə daxil olur, onu Bəyimin yanında əyləşdirirlər. Bu səhnəni görən qonaqlar təəccüblənirlər. Natəvan hamının eşidəcəyi bir tərzdə məclisə xitabən ucadan söyləyir:

- Həzərat, bu gündən Seyid Hüseyn cənabları mənim sahibim, ömür dostum olur. Odur ki, qazı ağadan ricam budur ki elə bu gecə bizim kəbinimizi kəssin. Bu sözdən sonra məclisi ani bir sükut bürüyür. Məclisdəkilər inana bilmirlər ki, Xan qızı min illik ənənəni pozaraq, rəiyyət oğluna ərə getsin. Lakin qazının titrək səslə oxuduğu izdivac ayəsi sükut buzunu əridir. Kəbin mərasimi qurtaran kimi hamı xeyr-dua verib, məclisi bir-bir tərk edir.

Hadisədən bir ildən çox vaxt keçir. Seyid Hüseynin həmkarı və dostu Xan qızının sarayının yanından keçərkən dostunun Natəvanla balkonda oturub çay içdiklərini görür və onları salamlayır. Dostu Seyid Hüseyni təbrik etdikdən sonra, bir neçə il bundan əvvəlki söhbətlərini və Seyid Hüseynin verdiyi vədi yadına salır. Seyid Hüseyn verdiyi vəddən boyun qaçıraraq, onun zarafat etdiyini deyir. Xan qızı məsələdən hali olub, iki yüz manat əvəzinə 600 yüz manat olan pul kisəsini eyvandan ərinin dostuna atıb deyir:

- Götür, mən onun qisməti olduğum kimi, bu pulda sənin qismətin imiş. Dostu ömründə görmədiyi pulları götürüb sevinə-sevinə evinə gedir.

Görkəmli söz xiridarının söhbət əsnasında dediyi hikmətli kəlamlar, müdrik sözlər bir sıra hallarda öz təcəssümünü poetik dillə, yaxud da nəzmlə tapırdı. Hər dəfə də belə incilər tarixi əhvalatlar və ya təsadüflərlə bağlı yaranırdı. Uzun müddət doğma elindən, ana yurdundan uzaq düşmüş cavan Mehdiqulu uzaq qürbətdən, döyüş meydanından məzuniyyətə çıxıb Şuşaya qayıdarkən anası onun boynuna sarılıb, qəddi-qamətini oxşayaraq belə demişdir:

Fəda o qamətə kim, qəza nə çox çəkmiş.
Qədər büküb belini, eyləyib kaman ölürəm!

Mehdiqulu məzuniyyəti bitirdikdən sonra yenə də getməyə hazırlaşarkən Banu aşağıdakı poetik misranı işlədir:

Nə böylə vəslin alaydı, nə də öylə hicranın. Sonradan bu misra xalq deyimində dildən-dilə düşmüşdür.

On beş yaşlı oğlu Mir Abbasın ölümü ilə bağlı baş sağlığı göndərənlərə və təsəlli verənlərə cavab mənasında belə demişdir:

Öldü bülbül, soldu gül, istər ağla istər gül.

O zamandan bu söz xalq arasında "olan oldu, torba doldu" məsəlində ən gözəl poetik variantı səviyyəsinə qaldırılmışdır.

Xurşidbanunun ilhamla qələmə aldığı şeirlərin bir hissəsi - «Eylər», «Mən idim», «Sən idin», «Bənzətdim» rədifli ürəyəyatan qəzəlləri Azərbaycan şairləri arasında şeirləşmələrə səbəb olmuşdur. Yaradıcılığının bir hissəsi də şairin şəxsi faciəsi ilə əlaqədar yazdığı silsilə şeirlərdir. Bu əsərlərdə oğlunun ölümü ilə ağır matəmə batan, mənəvi sarsıntılara məruz qalan və göz yaşları içərisində boğulan ananın ah-naləsi eşidilr.

Ömrünün son beş ili Natəvan üçün həm həyatda, həm də sənətdə ağır və böhranlı keçmişdir. O, 1897-ci il oktyabr ayının 1-də Şuşada vəfat etmişdir. Onun ölümü Qafqazın qabaqcıl maarifpərvər adamlarını kədələndirmişdir. El arasında qazandığı hörmət və ehtirama görə Xan qızının cənazəsi Şuşadan Ağdama çiyinlərdə aparılmışdır.

XIX əsrin ilk yarısında Xurşidbanunun şeirlər məcmuəsi bir neçə dəfə çapdan çıxmışdır. Həmin məcmuələrdən bəzi nümunələri oxucuların diqqətinə çatdırıram.

GETMƏ

Yıxıb bu könlüm evin, eyləyib viran, getmə!
Yoxumdu tabi-təvan firqətə, cavan, getmə!

Fəda olum sənə mən, səndən ayrıla bilməm,
Yəqin, fərağın edər qəddimi kəman, getmə!

Sənə də rövşən idi qəlbim, ey gözüm nuri!..
Guman ki təng ala bu canıma cahan, getmə!

Boyun balasın alım, sər tək yıxılma, oğul,
Doyunca görməmişəm getmə bir zaman, getmə!

Çıxaydı kaş gözüm, görməyəydi hicranım,

Ölüncə, bil, edərəm nalәvü-fəğan, getmə!

Sabahadək oturub çəkmişəm cəfalərini,
Boyüm bərabərisən indi, əlaman, getmə!

Yəqinən əl çəkəcək dostü aşinalərdən,
Dəli kimi düşəcək çöllərə anan, getmə!.

Sənlə kim, açılıb qəlbimin şükufələri,
Mürüvvət eylə, əzizim, edib xəzan, getmə!

Di yumma gözlərini, qoy görüm doyunca səni,
Gözümdə cari edib əşk, həm rəvan, getmə!

Tərəhhüm eylə mənə, dərdü möhnətim çoxdur,
Qoyub bu hicri-bəla içrə Natəvan, getmə!

SƏNSİZ
Bu seiri oğlu Mir Abbasa ithaf etmişdir.

Bahar əyyamidir, açıldı güllər, ey cavan sənsiz!
Təəccübdür, nədən divanə olmaz Natəvan sənsiz?

Şamadət eyləyir düşmən mənə hər dəm və hər saət,
Mərəz artır dəmadəm, varə-varə, hər zaman sənsiz.

Nə ümidim vüsalə, nə fəraqə tabü taqət həm,
Gözümdə tirəvü tar oldu, billah, bu cahan sənsiz.

Sən əyləş hur ilə, eylə həmişə eyşü-işrət kim,
Dəmadəm mən çəkim, dildən edim ahü-fəğan sənsiz.

Yetişməz başə, Abbas, ömrüm axır bir tamam olsun,
Keçər hər bir dəqiqə ildən artıq, əlaman sənsiz.

Bu gün eydi-şərif oldu, məgər sən bixəbərsənmi?
Güman etmə ki, işrət içrə əylənsin anan sənsiz.

Gül-ruhindən ayrı neylərəm mən gülüstan seyrini?
Edər bülbül kimi nalə bu zarü Natəvan sənsiz.

GETDİ
Nə yaxşı munis idi, heyf, nəgahan getdi,
Məni bu möhnətə qoydu əlaman, getdi.

O sərvi-nazdan ayrı baxarmı sərvə gözüm,
Hil ol tək qəddimi eylədi kəman, getdi.

Unutdu güllərini, qıldı xaniman təkin,
Nə baxdı yarlərə, çəkdi əlaman getdi.

Nə oldu arız ayə, bağban, bu gülşəndə,
Açılmadı bu bahar gülləri, xəzan getdi?

Nə tapdı ləzzəti-işrət, nə gördü gülzarı,
Bahar fəslində, yaran bu növcavan getdi.

Məni bu möhnət əra qoydu didəsi giryan,
Bəlayi-hicrə salıb, qoydu bağrı qan, getdi.

Məzarın üstə gəlib əylənim damədəm, oğul,
Deyərmisən ki, nə növ ilə Natəvan getdi.

AĞLASIN
Ey əhli-dil, Fənanı qoyun barə ağlasın!
Əğyarə çünki yar olub yarı, ağlasın!

Mən etmək aşiqin nə rəva ahü zardən?
Çox dərdi var, qoyun ki, sizi tarı, ağlasın!

Gizlin xəyalı var ki, belə ahü-zar edər,
Öz halim qoyun bu diləfkarı, ağlasın!

Bülbül nəvasi bisəbəb olmaz bu bağdə,
Gördükcə hər zaman gül ilə xarı ağlasın!

Hicrani-yar oldu səbəb ağlamağına,
Ya rəb, görüm həmişə səbəbkarı, ağlasın!

Vursun əlilə başına hər şam, ta səhər,

Yarı qəm içrə olmadı qəmxarı, ağlasın!

Şami-fəraqdə qaliban zarü xəstədil,
Saldıqca yadə al məlik-rüxsarı, ağlasın!

Səsləndi Natəvanə ki, ərbabı-qəm tamam,
Hali-Fənayə cəm olub, elcarı ağlasın!

ÖLÜRƏM

Varımdı sinədə dərdü qəmi-nəhan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtahan, ölürəm.

Fəraqdan gecələr yatmaram səbahə kimi,
Xəyali zülfünə bağlı gedibdir can, ölürəm.

Bahari-hüsnün əra gör neçə xəzanəm mən,
Bahar laləsi tək bağrım oldu qan, ölürəm.

Vərəq-vərəq dilu can hicrin içrə odlaşdı,
Misali-kəncəfə sədparə oldu can, ölürəm.

O xaki-payini mən aşiyanə etmiş idim,
Vətəndən ayrı düşüb indi laməkan, ölürəm,

Dedim ki, çək əlini damənimdən, əl çəkdim,
Tərənnüm eyləmədin axır, ey cavan, ölürəm,

Çəkirdim həsrətini, görmədim, xudahafiz!
Olubdur indi işim nalәvü fəğan ölürəm,

Fəda o qamətinə kim, qəza nə xoş çəkmiş,
Qədər büküb belimi, eyləyib kəman, ölürəm.

Fəraqdən tükənib tabü taqətim, billah,
Vüsalə yetməz əlim, zarü Natəvan ölürəm.
(Şeir Natəvanın böyük oğlu Mehdiqulu xana həsr edilmişdir.)

«Xurşidbanu Natəvanın əsərləri» (Bakı. Yazıçı. 1984-cü il) və həmin nəşr əsasında Bəylər Məmmədovun 2004-cü ildə tərtib edib «Lider» nəşriyyatında çap etdirdiyi kitabdan bəzi nümunələri yenidən oxuculara təqdim etməyi özümə borc bildim.

Xan qızı Natəvan taleyindən keçən ağrı-acıları taleyin qədəri kimi yaşamış və bu ağrıları yaradıcılığında olduğu kimi əks etdirmişdir.

CAVANŞİR NƏSLİNİN SÖZ ADAMLARI

Xurşidbanu Natəvanın babası məşhur Qarabağ xanı İbrahimxəlil xan Cavanşirdir.

Xurşidbanu Natəvanın atası Mehdiqulu xan Cavanşir (1775-1845).

Mərhum İbrahim xan sağ ikən bir anadan doğulmuş böyük oğlanları Cavad ağa və Məhəmmədhəsən ağa vəfat etmişlər. Bunların anaları Cəbrayıllı bəylərdən birinin qızıdır. İbrahim xanın vəfatından sonra polkovnik Xanlar ağa və İranda olan Əbülfət xan vəfat etmiş, sonra polkovnik Məhəmmədqasım ağa, Fətəli ağa, Hüseynqulu ağa və Səfqulu ağa da vəfat etmişlər.

Mərhum xanın sağlığında sağ qalan həmail və cəvahir cıqqa sahibi Mehdiqulu xandır ki, o da Qarabağın sonuncu xanı olmuşdur. Hələ mərhum İbrahim xanın sağlığında birinci dəfə Kürəkcay qırağında Sərdar Sisianovla görüşdüyü zaman varislik və vəliəhdlik adı onun böyük oğlu Məhəmmədhəsən ağaya verilmişdir. General mayor Məhəmməd ağa İbrahim xanın sağlığında öldürüldüyündən, xanın yerdə qalan oğlanlarından ən böyüyü general mayor Mehdiqulu ağa idi. Buna görə İbrahim xanın sağlığında varistlik və vəliəhədlik kağızı, xanın və Qarabağın başqa əyanının möhrü Mehdiqulu ağaya verild, və varis adlandırıldı.

1822-ci ildə Qafqaz Canişini Yermolovun Qarabağ xanlığına qarşı yeritdiyi qərəzli siyasətin nəticəsində Mehdiqulu xan altı min evlə İrana köçüb, beş il yəni 1827-ci ilədək Qaradağ vilayətində yaşamalı olmuşlar. Yermolov hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra onu əvəz edən general Paskeyeviç Mehdiqulu xana bəraət qazandırıb öz vətəninə qaytarmışdır. İrandan Şuşaya qayıtdıqdan sonra Bədircahan bəyimin ailəsinə hədsiz sevinc və xoşbəxtlik üz vermiş, 1832-ci ildə xanlığın yeganə varisi Xurşidbanu dünyaya gəlmişdir.

Mehdiqulu xan Cavanşir 17 il (1806-1822) Qarabağda hakimlik etmişdir.

1807-ci ildə imperator Aleksandr Pavloviçin fərmanı üzrə Mehdiqulu xana Qarabağın xanı adı, hakimiyyət bayrağı və cavahirə tutulmuş qılınc verilmişdir.

Xurşidbanu Natəvanın anası Bədircahan bəyim (1785-1861).

Gəncə hakimi Cavad xanın nəticəsi, Ziyad xanın nəvəsi və Uğurlu bəyin qızıdır. O, 1785-ci ildə Gəncədə doğulmuş, uşaqlıq və gənclik illərində orada keçirmişdir. İlk təlim-tərbiyəsini saray şəraitində almış, az da olsa oxuyub-yazmağı öyrənmiş və asudə vaxtlarını mütaliəyə sərf etmişdir.

Təxminən 1806-1807-ci illərdə Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirlə ailə həyatı qurmuş, iyirmi beş ilə yaxın övladsız qalmışlar. Siyasi münaqişələr, saray çəkişmələri nəticəsində əri ilə bərabər Qarabağdan İrana köçmüş, bir müddət (1822-1827) Qaradağ vilayətində yaşamalı olmuşlar.

19-cu əsrdə azad məhəbbət, şəxsiyyət azadlığı problemi Bədircahan bəyimin müraciət etdiyi mövzuların əsasını təşkil etdiyi kimi, qadınların hüquqsuz vəziyyəti, nakam aşıqların acınacaqlı halı da onu düşündürmüş və onların ədalətsiz dövran tərəfindən hər cür mərhumiyyətlərə məhkum edilməsinə qarşı öz etirazını şeirlərində bildirmişdir:

Ya rəbb uşşaqi nə üçün yaratdın,
Onu eşq oduna yandırıb yaxdın?!

Bədircahan bəyim qadınların maariflənməsinin, azad və mədəni həyat keçirməsinin ehtirazlı tərəfdaşlarından olmuş, bu məqsədlə qız məktəbinin açılmasını, azərbaycanlı tələbələrin Rusiyada, Qafqazın müxtəlif şəhərlərində təhsil almasını ürəkdən alqışlamış və bu yolda xeyli vəsait sərf etmişdir. (Bax: "Qafqaz" qəzeti, 24 iyul 1858-N 49).

Mehdiqulu xanın ölümündən sonra xəzinədən ildə min qızıl onluq miqdarında Bədircahan xanıma təqaüd ayrılmışdır. Ərindən qalan mülk və təsərrüfatların idarə olunması da qızı Xurşidbanu ilə birlikdə onların öhdəsinə düşmüşdür.

Bədircahan bəyim Qafqazın bir neçə şəhərində Şamaxıda, Bakıda, Tiflisdə olmuşdur. 1858-ci ildə kürəkəni Knyaz Xasay Üsmiyev, qızı Natəvan və nəvələri Mehdiqulu, Xanbikə ilə birlikdə Bakı şəhərində olarkən, Qafqaz səyahətinə çıxmış məşhur fransız yazıçısı Aleksandr Duma (Ata) ilə yaxından görüşüb tanış olmuşdur. Aleksandr Duma da həmin görüş haqqında öz təəssüratlarında xüsusi yer vermişdir.

Bədircahan bəyim xalq arasında qeyrətdə, mərdanəlikdə kişilərdən geri qalmayan bir xan qızının obrazını yaratmışdır.

Bədircahan bəyim gözlənilmədən xəstələnmiş, 1861-ci ildə Şuşada vəfat etmişdir. Aşiqi-məşuqların sevgisini izhar edən bir beytini sizlərə təqdim edirəm:

Görəsən dilbərin bunca təmanası nədir,
Küsdürüb aşiqini, könlünü alması nədir?

Xurşidbanu Natəvanın oğlu Mehdiqulu xan Cavanşir (1855-1900).

Knyaz Mehdiqulu xan 1855-ci ildə Şuşada məşhur bəy ailəsində dünyaya göz açmışdır. O, xan qızı Xurşidbanu Natəvanın Dağıstanlı Xasay Üsmiyevdən olan böyük oğludur. Mehdiqulu xan (ana ailədə "Xanoğlan", qohumları içərisində "Knyaz" da deyərmişlər). O, xüsusi mürəbiə və mirzələrdən Azərbaycan, ərəb, fars dillərində təlim-tərbiyə almış, bu dillərin köməyi ilə şərq ədəbiyyatı, poeziyası ilə yaxından tanış olmuşdur. Mehdiqulu

xan şərqin, islam dünyasının yaratdığı mədəni sərvətlərə də dərin məhəbbət bəsləmişdir. O, on üç-on dörd yaşlarında ikən poeziyaya böyük maraq göstərmiş, anasının yaratdığı əsərlərin təsiri altında şeirlər yazmağa başlamışdır. Gözəl bibliqoraf idi. Avropa-rus klassiklərinin əsərlərini, yaxın şərq ədəbiyyatının nadir incilərini həvəslə yığıb toplamışdı.1897-ci ildə ilk dəfə Şuşada təşkil olunan, müsəlman qiraətxanasının təşəbbüskarlarından biri olmuşdur.

Mehdiqulu xan Tiflis və Peterburuq şəhərlərində oxuyaraq, orta hərbi təhsilini bitirmişdir. On altı yaşında ikən o, milis proporşiki rütbəsi almış, 1874-cü ildə Peterburuqda zadəgan uşaqlarına məxsus hərbi məktəbdə oxumuşdur.

1877-ci ildə Qafqaz canişini böyük Knyaz Mixayil Nikolayeviç Romanovun şəxsi yaveri sifəti ilə rus-osmanlı müharibəsində iştirak etmiş, döyüşdə cəsarət və şücaət göstərdiyinə görə yüksək orden və medallarla təltif olunmuşdur. Müharibə qurtardıqdan sonra o, podpolkovnik rütbəsində vətəni Qarabağa qayıtmış, 1878-ci ildə polkovnik Kərim Ağanın qızı Səltənət Bikə ilə evlənmişdir. Onun bir oğlu, bir qızı olmuşdur. Görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərli əsərlərində Azərbaycan poeziyasından bəhs edərkən Mehdiqulu xan Vəfanı iqtidarlı şairlərdən biri olduğunu göstərib, yazırdı: "İnsana məhəbbət, əfv və iztirab istedadlı Mehdiqulu xan Üsmiyev poeziyanın canını təşkil edir. Şair oxucusuna xitabən deyir; "Çəmənzara yavaş gir ki, xırda böcəklər, yaşıl otlar, yeni gül şaxələri ayaqlar altında qalıb əzilməsin". Həqiqətən də, yüksək hümanizm, təbiət gözəlliklərinə vurulmaq, həyata məftunluq hissi Vəfanın şeirlərində xüsusi bir ahənglə səslənir.

Mehdiqulu xanın Azərbaycan və Fars dilində yazdığı qəzəllər 19-cu əsr Azərbaycan və Fars poezyasının incilərindən hesab edilir. O, fars dilində yazdığı qəzəllərində, şeirlərində "Knyaz" imzası qoyarmış. Onun şeirlərində yumşaqlıq, oxuculuq və təravətlilik bəzən Sədi, Hafiz və Ömər Xəyyamın üslubunu xatırladır. Hissin incəliyi, fikrin səmimiliyi cəhətdən onun şeirləri Natəvan lirikasına çox yaxındır.

Gül gəldi, gəlmədi xəbər al gülzardan,
Yox hasilim bu fəsildə bağü-bahardən.

Burada Natəvan qəzəllərinə xas olan fikir vəhdəti, üslub ,vəzn və qafiyə kimi şəkli-xüsusiyyətlər öz əksini tapır. Bəzən də onun şeirlərində haqsızlığa qarşı birgə mübarizə çağırışı eşidilir.

Yaran, gəlin bu gün fürsət məqamıdır,
Viran olub vətən qeyrət məqamıdır.

Mehdiqulu xan Vəfa ömrünün çiçəklənən vaxtında qırx beş yaşında ikən, 1900-cu ilin 8 sentyabrında Tiflisdə vəfat etmiş, vəziyyətinə görə Ağdamdakı İmarətində dəfn olunmuşdur.

Şairin vaxtsız ölümü münasibətilə "Qafqaz", "Tərcüman" qəzetlərində nekroloqlar dərc olunmuş və yaradıcılığından, ictimai fəaliyyətindən söhbətlər açmışlar. İnqilabdan əvvəl Vəfanın bir neçə şeiri təzkirlərə salınmış, kitab və jurnallarına daxil edilmişdir. Onun əsərləri Respublika Əlyazmaları Fondunda saxlamaqdadır.

QƏZƏLLƏR

Qarabağ içrə bu tənhalığa səbrü-qərarın yox,
Qəmindən başqa, bu viranədə bir qəmküsarım yox.

Hüzurundə qəmim ərz etməyə bir dəm məhalim yox,
Yolunda zillətim çox, xidmətində etibarım yox.

Köçən bülbül kimi ki tərk qılmış səhni- gülzarı,
Xərabə məskənindən başqa, ey gül, yadigarım yox.

Həvadisi-sərsəri görmüş mənəm nakam olan bülbül,
Gülüm yox, gülşənim yox, aşiyanım, novbaharım yox,

Yolunda xakisar oldum, tərəhhüm qılmadın bir dəm,
Bu həm xoşdur ki, məndən dəmənində bir qubarım yox.

Vücudun nəqş edən nəqqaş əldə canı-mey çəkmiş,
Vəfa, tərki-meyü cam etməyə bir ixtiyarım yox.
(Bu şeiri Mehdiqulu xan anasının ölümündən sonra yazmışdır.

****

Ol dəğil şair ki, şeirin ehtiramın bilməyə,
Dəvi şeir eyləyə, amma məqamın bilməyə,

Pul təmannası ilə şeirin ərz edə hər nakəsə,
Küçələrdə xar olub özünün namin bilməyə.

Şeir hikmətdir, bəsi alidir qədri şairin,
Heyf ol şairə ki, qədrin, kəlamın bilməyə.

Şərtdiz naəhlə izhar etməyə hali-dili,
Ruzigarı tar ola, ya sübhi- şamin bilməyə.

Rüzi- şəb virdi-zəban etmiş Vəfa bu misrayi,
Lənət olsun şairə, gər öz məqamın bilməyə.

(Bu şeiri 1874-cü ildə Xurşidbanunun ünvanına şair Abdulla bəy Asi tərəfindən yazılmış, ədəbdən kənar, uzun-uzadı bir həcvə cavab olaraq qələmə alınmışdır).

****

Gül gəldi, gəlmədi xəbər ol gülzardən,
Yox hasilim bu fəsldə bağü - bahardən.

Eymiş sənlə eyşdi, könlüm sənlə şad,
Sənsiz nə hasilim çəməni laləzardən?!

Ya rəb, olaydı mən kimi min dərdə mübtəla,
Bu dəhrdə cüda eyləyən yari-yardən.

Axır rəva deyil ola gül xar ilə ənis,
Biganələr kimi baxa bülbül kənardən.

Əgyarə şəhri-hal qılıb şükva eyləməz,
Yüz min cəfa yetişsə əgər yarə yardən

Peyğami - yarə müntəzirəm, taki can verəm,
Ya rəb, xilas qıl məni bu intizardən!

Müşkildi kağız ilə qələm yarə ərzi hal,
Çoxdur şikayətim ona bu rüzgardən.

Pamal qıldı dəhrü-ümidim nəhalini,
Dehqan kəsər nəhali-əgər düşsə bardən.

Məxmur nəşeyi-meyi-qəflət olan Vəfa,
Bidar olaydı kaş bu xabi-xumardən.

Xurşidbanu Natəvanın qızı Xanbikə xanım (1856-1921).

Xurşidbanu Natəvanın qızı birinci əri Xasay Üsmiyevdən olan qızı Xanbikə (Fatmabikə) 1856-cı ildə anadan olub. O da şeir və sənət pərəstişkarlarından olmuş, xüsusi dayə və mürəbbiələrin nəzarəti altında böyümüş, təlim-tərbiyəsini isə görkəmli alim və müəllimlərdən almışdır. Hələ məktəb yaşında ikən müəllimləri Mirzə Sadiq Sadiq və şair Mirzə Rəhim Fəna Xanbikədə şeirə maraq oyatmış, anası Xurşidbanu Natəvan öz yaradıcılığı ilə onun qələminə istiqamət vermişdir.

1872-ci ildə Xanbikə Xoy və Qıvraq kəndinin atamanı naxçıvanlı Əmənulla xana ərə getmiş, ondan bir neçə övladı dünyaya gəlmişdir. Oğlu Əkbər xan Naxçıvanlı 1960-cu illərə qədər yaşamışdır. Xanbikə ərinin qulluğu ilə bərabər uzaq şəhərlərdə - Naxçıvanda, Tiflisdə, Qafqaz da yaşasa da, tez-tez ailəsi ilə birlikdə Qarabağa gəlib, anası ilə görüşürdü. Xanbikənin azərbaycan və fars dillərində yazdığı şeirlər bir sıra nəzirələrdən, eləcə də anası Xürşidbanunun və qızı Ənbərbikənin ayrılığına həsr edilmiş mənzum məktublardan ibarətdir. Vaxtilə xəstə və zəif anasına göndərdiyi mənzum bir məktub, həm quruluşu, həm də ideya məzmunu etibarı ilə şairənin başqa şeirlərindən fərqlənir. Burada müəllif anasını möhnət və cəfalara mərdliklə tab gətirməyə çağırır.

Xanbikə 1921-ci ildə Ağdamda vəfat etmiş, İmarətdəki silsiləvi qəbirstanlıqda dəfn olunmuşdur .Onun müxtəlif vaxtda yazdığı şeirlərin bir neçəsi ilə oxucuları tanış etmək istəyirəm:

Xanbikənin Xurşidbanu Natəvana birinci məktubu. “Ümid edirəm qibleyi-mükərrəmlər, nəzərinə yetsə əfv edərlər”.

Qəzəl
Ey nuri düçeşm ata - ana-ana, Saldın şərari fəraqi-canə.
Ata-ana, bacı-qardaş-Ahi yetişibdir asimanə.

Sənsən oların muradi daim- Ey bəhri dilə dürrü yeganə*
Sanma ki, fəraq səndədir tək - Bu dərdə düşüb hamı zəmanə.

Ata-ana, qardaş ilə bacı - Daim gətirir adın zəbanə.
Zənciri-məhəbbət iki başdır-Səbr et, dəxi düşmə sən fəqanə.

Töhmət eləmə, etiqadi-Simur, Əfsus ilə gəlmə sən əmanə.
Qəm çəkmə, vüsalə tez yetərsən, Oğlan gərək hicranə dayanə.

Hamı öpürük nənənin əlindən - Ver bucə özüm bu halə, ana!
*** Qohumlar arasında Xanbikəyə "dürrü yekta", yəni tək inci xanlığın yeganə varisi deyərmişlər.**

İkinci məktub
Gəl ey xəyali-vüsali, ölüm zəmanidi, gəl!
Ölüm zəmanində canan, aman-amanidi, gəl!

Əgər sorağimi tutsan, olum sənə qurban,
Belavü qüssəvü-qəm aşiqin nişanidi, gəl!

O qədər nazını çəkdim, ölüm yetişdi mənə,
Nə nazü qəmzədir, dilbər, ölüm zamanidi, gəl!

Gəl indi axiri ömrümdə bir nəzarə qılım,
O gül camalə kim, aravmi-cismü canidi, gəl!

Könüldə qönçəsifət, zəxmi-tiri-müjganın,
Açıbdı, gül açılıb zəxmi kim, nihanidi, gəl!

Yetişməyən sənə, ey gül, bu gülüstan içrə,
Gülündən ayrı düşən, bülbülün fəğanidi, gəl!

Fəraqin aldı tənim, canımı fəraqi-rüxin,
Təbani-cani-dil zari-Natəvanındır, gəl!

Xanbikənin qızı Ənbərbikəyə həsr etdiyi qəzəl

Salıbdı möhnəti -hicrin bir özgə halə məni,
Edibdi dərdü qəmü qüssəyə həvalə məni.

Məgər yoxundu xəbər, çəkmişəm nələr sənsiz?

Fələk salıbdı qəmü möhnətü məlalə məni

Vüsal günləri bir mahi-ənvərim sən idin,
Gör indi ayrılığın döndərib hilalə məni.

Sənin xəyalinlə mən ki, bağrı qan oldum,
Tərəhhüm eylə, gətir sən də bir xəyalə məni!

Gönül sərvi, mahi-ənbərim, gözüm nuri,

Qalmadı tabi -təvanım, tükəndi aramim,
Qarari -səbrim alıb, verdi qəm zəvalə məni

Nə sən fəraqə dözürdün, nə mən bu hicranə,
Gəl indi vüsalə yetiş, ya yetir vüsalə məni!

Yetiş harayimə, qəmdən məni xilas eylə,
Yəqin ki, öldürər axır bu ahu nalə məni.

Xurşidbanunun göstərişi ilə bu məktub Xanbikə tərəfindən yazılıb.

Xurşidbanu Natəvanın oğlu Mir Həsən ağa Mir (1870-1903).

Mir Həsən ağa Mir (1870-1903) Xurşidbanu Natəvanın ikinci əri Şuşalı Seyid Hüseyndən olan ortancıl oğludur. O, 1870-ci ildə şair və bəstəkarlar, əvəzsiz xanəndələr yurdu olan Qarabağın tacı sayılan Şuşada həyata göz açmış, cəmi 33 il ömür sürmüşdür.

Mir Həsən saray təhsili görmüşsə də, dini ayinləri əzbərləməkdən təngə gəlmiş, öz bilik dairəsini artırmağa, məlumatını çoxaltmağa təbii ehtiyac duymuşdur. Odur ki, gənc Həsən mütaliəyə üstünlük vermiş, Azərbaycan, fars və ərəb klassiklərinin əsərlərinə müraciət edərək, onların yaradıcılıq sirlərinə bələd olmağa çalışmışdır. Nəhayət, tükənməz xəzinə olan xalq yaradıcılığını dərindən öyrəndikdən sonra o, «Mir» təxəllüsü ilə şeirlər yazmağa başlamışdır.

Mir Həsənin yazdığı şeirlərində bədbin bir ruh, fərəhdən çox əzab, tərki dünyalığa, həyat ziddiyyətlərindən doğan bir narazılıq özünü qabarıq göstərir. Şair onu əhatə edən mühitdəki haqsızlığa, bərabərsizliyə, cəhalətə dözə bilmədikdə, dərdləri unutduran meydən təsəlli almış, yalnız bundan sonra xəlvətə çəkilərək qələmə əl atmışdır.

Mir Həsən farsca yazdığı şeirlər də Sədi və Hafizdən çox, Ömər Xəyyama yaxınlaşmışdır. O, iti hafizəyə, rəvan təbə malik olan bir şair kimi tanınmışdır. Çox təəssüf ki, çox erkən ölmüş, yazdığı mənzumələr əlyazma şəklində pərakəndə halda şeir dəftərlərində qalmaqdadır.

Mir Həsən ağanın Azərbaycan dilində yazdığı qəzəllər, bir növ anası Natəvanın şeirlərinə nəzirə olsa da, orijinal səslənir.

Qəzəl

Nə zülfü-yarə, ilahi, könül müsəxxər olaydı,
Nə elə zərü pərişan, nə belə müztər olaydı.

Nə mah tək doğuban aləmi münəvvər edəydi,
Nə zülməti - səbi - zülfündə dil mükəddər olaydı.

Nə sərvi-qədd olaydı, nə qaməti şümşad,
Nə də xüramə gələndə qiyamı-məşhər olaydı.

Nə odi-məcmər olaydı, nə zülfü-qaliyəbü,
Nə də diyari-xəttin içrə müşkü ənbər olaydı.

Nə qaşü məfsus olaydı, nə tir tək müjgan;
Nə caki-sinə edən tüğcü tiri-xəncər olaydı.

Nə mey olaydı, nə işrət, nə cami-badeyi-nab,
Nə Miri məst eyləyən saqiyi-sitəmkar olaydı.

Ağabəyim Ağa Ağabacı (1782-1831).

Xurşidbanu Natəvanın yaxın qohumlarından biri də bibisi Ağabəyim Ağa Ağabacıdır. Ağabəyim ağa İbrahim Xəlil xanın qızı, şairə Xurşidbanu Natəvanın bibisidir. O, 1782-ci ildə Şuşada dünyaya gəlmiş, sarayda qayğısız uşaqlıq illərini yaşamışdır. Keçən yüzilliyin istedadlı qələm sahiblərindən olan Ağabəyim ağa ağlı, qabiliyyəti, həm də gözəlliyi ilə şöhrət qazanmışdır. Onun istedadı dövrün xadimlərinin, şairlərinin, jurnalistlərinin diqqətini cəlb etmişdir. O, incə zövqə, poetik təbə və dərin məlumata malik istedadlı qələm sahibi idi.

Ağabəyim ağanı Qarabağın füsunkar təbiəti, qaynar həyatı onda gözəlliyə, vətənə və onun adamlarına vurğunluq hissini qiymətləndirmiş, hafizəsində dərin iz salmışdır. Bu hisslər onu şeir yazmağa sövq etmişdir.

Ağabəyim ağa xan qızı olsa da, hərtərəfli təmin olunsa da, əslində, xoşbəxt deyildi. Onun taleyi nakam Azərbaycan qadınlarının taleyindən az fərqlənmirdi. Çox gənc ikən isti yurdundan, doğma elindən razılığı olmadan yaşı ötmüş Fətəli şaha ərə verilməsi gənc qızın hüququnun tapdalanması, ləyaqətinin alçalmasından başqa bir şey deyildi.

Atası Fətəli xanla qohumluq əlaqəsi yaratmaq naminə 1798-ci ildə Fətəli şahın tacqoyma mərasimi ilə əlaqədar olaraq iki yüz atlının və xeyli xidmətçinin müşayiəti ilə şahın hərəmxanasına gəlin köçür. Xan da onun gözəlliyinə, zəkasına heyran qalaraq onu baş hərəm təyin edir.

Ağabəyim Ağa Ağabacının uğursuz taleyindən yazarkən Xarı bülbülü unutmaq günahdır. Çünki, bu çiçəklə bağlı gözəl bir həqiqət həmişə nağıl kimi səslənir.

Qarabağ xanı İbrahim xan öz gözəl qızı Ağabəyimi İran şahının sarayına gəlin köçürür. Bu, Qarabağ gözəli orada günü-gündən saralıb-solur. Vətən, vətən - deyib bülbül kimi nalə çəkir. Əlacsız qalan şah Qarabağın ağacından, gülündən, çiçəyindən apartdırıb, sarayda bir Qarabağ cənnəti düzəltdirir. Lakin Ağabəyim ağa qəfəsdəki bülbül kimi çırpınmaqda davam edir. Çünki o «cənnət»də bülbül yox idi. Xarı bülbül - çiçəklərin bülbülü yalnız Şuşada bitir.

Mənə elə gəlir ki, Şuşa da Azərbaycan bağçasının Xarı bülbülüdür. Onu görməyəndə, onun bal havasından udmayanda, bu bağda «Vətən cənnəti» mənə kasıb gəlir.

Ağabəyim ağa torpağı ilə pərvəriş tapdığı, havası ilə nəfəs aldığı, gözəlliyi ilə öyündüyü vətənindən ayrılarkən aşağıdakı rübaisini yazmışdır.

Səndə məskən salan nə bəxtiyardır,
Şəfalı qoynun, xoş abı-havan vardır.
Dəvənin boynunda səfərə çıxan,
Zəng kimi könlüm də sənə bağlıdır.

Xan qızı darıxmasın deyə ona Qarabağ üslubunda qəsr bəzətdirir, ətrafında bağça-bağ saldırır, hər tərəfindən su arxı çəkdirir və fəvvarələr düzəltdirir. Lakin bunların heç biri Ağabəyim ağanın ruhunu oxşamır. O, Vətəni xatırladıqca bədahətən qoşduğu bayatını ürək yanğısı ilə oxuyur:

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Ağabəyim ağa şirin söhbətləri, zərif və mədəni rəftarı ilə Fətəli şahı ram etmiş, tezliklə onun etimadını qazanmışdır. O, parlaq istedadı sayəsində yaşadığı ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak etmiş müsəlman qadını olmuşdur. O, fars dilini mükəmməl öyrənərək özünə avropalı dostlar tapmış, dövrün qabaqcıl ziyalıları ilə yazışmışdır. 1811-ci ildə Fransız imperatorunun arvadı ilə görüşmüş, onun vasitəsi ilə Napoleon Bonaparta məktub göndərmişdir (Ağa Əbülhəsən Nəqqaş Əfşar Urmavanın yazdığına əsasən). Məşhur rus səyyahlarından P.Kavalevskinin «Gürcüstan haqqında qeydlər» oçerkindən öyrənmək olur ki, 1814-cü ildə I Georq İran səfirliyində olarkən Ağabəyim ağa ilə görüşmüşdür. Xanım fəxri qonağı kubarlara məxsus yüksək səliqə, nəzakət və ədəb qaydaları ilə qarşılaşdığına, dərin etiqad yaratdığına görə Ağabəyim ağa yüksək kral mükafatına layiq görülmüşdür. Rus kraliçası Ağabəyimə göndərdiyi məktubda yazırdı: «Ey Bəyim, Siz öz müdrikliyinizlə mərhəmətli şahın ikinci Zöhrəsi, tale ulduzu oldunuz».

Ağabəyim ağa öz dövrünün, torpağının sənətkarı kimi ətrafında baş verən hadisələri romantik boyalarla Ağabacı təxəllüsü ilə qələmə almışdır.

Yanaram qəm oduna, nəsihət bunca yetər,
Sən ətəyində bu odu alışdırıb get, sakit ol.

(Fransızadan tərcümədən)

Ümumiyyətlə, onun şeirlərindən anlamaq çətin deyil ki, o da müasirləri Qasım bəy Zakir, Aşıq Pəri, Məhəmməd bəy aşiq Zəngilani və Əndəlib Qaracadağı kimi müxtəlif janr, forma və bədii canlandırma vasitəsindən məharətlə istifadə etmişdir. Onun ana dilində məhəbbət himni kimi səsləndirdiyi məşhur bir beytində öz əbədi əksini tapmışdır.

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi, necə getdi.

Taleyin hökmünə boyun əymək məcburiyyətində qalan, zəmanədən acı-acı şikayətlənən nakam bir qadının ürək sızıltılarını, acı fəryadını bundan aydın, səlis bir dildə, yığcam, mənalı şəkildə kim yaza bilərdi? Yalnız

haqsızlıqdan, hüququn tapdalanmasından narazı olan Ağabəyim ağa yaza bilərdi və yazmışdır.

O, fitnə-fəsad yuvası olan saraydan uzaqlaşmış, ona məxsus tənha bir hücrəyə çəkilmiş, 1831-ci ildə vəfat etmiş və onun şəhərindəki sahiblərinə məxsus qəbristanlıqda dəfn olunmuşdur.

Ağabəyim ağanın farsca yazdığı bir fəxriyyəsinin Azərbaycan dilinə tərcüməsini oxuculara təqdim edirəm.

Əgər küləyə versəm, zülfi-ənbərfişanı,
Salar toruna bir-bir səhra ahularını.

İstəsəm seyrə çıxam günün bir xoş çağında,
Bütün aşiqlərimin göyə çıxar fəğanı.

Bu nərgiz gözlərimə sürmə çəkkəsi olsam,
Batıraram tozuna tamam cümlə-cahanı.

Kifayətdir bir işvəm, min ölüyə can verə,
Ecazımla salaram heyrətə məsihanı.

Əgər düşsə güzarım, bir zaman kəlisayə,
İmana gətirərəm o kafər qızlarını.

Yerişdə kəkliyəm mən, uçuşda da şahbazam,
Bir qırpımda ovlaram padşahi-unqanı*.
***unqa quşlar Allahı**
(Şeirin farscadan tərcüməsi Bəylər Məmmədovundur)

İndiyəcən bu fəxriyyəni Gövhər ağaya isnad edirdilər, əslində isə şeir Ağabəyim ağanındır.

Gövhər Ağa (1796-1888)

Cavanşirlər nəslinin istedadlı şairə xanımlarından biri də Gövhər Ağadır. İbrahim Xəlil xan Cavanşir dost dövlətlərlə yaxın münasibət yaratmaq üçün Gürcü knyazlarından olan Abaşidzenin qızı Sofiya ilə evlənmişdi. Gövhər ağa da xanın bu qadından olan qızıdır.

Gövhər ağa 1796-cı ildə Şuşada anadan olmuş, saray tərbiyəsi görmüş, xüsusi müəllim və alimlərindən dərs almışdır. O, boş vaxtlarında mütaliə ilə məşğul olmuş, Azərbaycan və fars dillərində şeirlər yazarmış. Onun şirin və duzlu qəzəllər müəllifi olması Məhəmmədəli Tərbiyətin «Danışməndan ı Azərbaycan» kitabında öz əksini tapmışdır.

Gövhər ağa Qarabağda çox səxavətli, xeyirxah və vətənpərvər bir şair xanım kimi tanınmışdır. Alim və şairlər, sənət adamları onun mərhəmətinə və himayəsinə sığınmış, tez-tez evində təşkil etdiyi ziyafətlərdə iştirak etmişlər. Şairlərdən Aşıq Pəri, Məmməd bəy Aşiq, Qasım bəy Zakir, Mola Abbas və digərləri onun müasiri olmuşdular. Qasım bəy Zakirin «Ey gövhəri-paki-zeyi-

dəryayi-lətafət, həm xani-həqayiq» misrası ilə başlanan mədhiyəsi Gövhər ağaya həsr edilmişdir.

Varlı və dəbdəbəli ömür sürən Gövhər ağanın həyatı keşməkeşlərlə, məhəbbət məcaraları ilə dolu olmuşdur. O, əvvəlcə xalasının təklifi ilə Şəkili general-leytenant Cəfərquluya ərə getmiş, ondan övladları olmamışdır. Ərinin qulluğu ilə əlaqədar olaraq Tiflisdə, Şəkidə, Gəncədə və Vladiqafqazda olmuşdur.

Ərinin ölümündən sonra o, bir müddət dul qalmış, sonralar Şuşada çox az tanınan vəkil Xankişibəylə ailə qurmağa razılıq vermişdi. Lakin, Şuşanın bu gözəl, ağıllı xanımının bu şəxslə izdivac qurmalarını heç cür qəbul etmək istəməmişlər. Şuşa şairlərindən Heydəroğlu bir beyti ilə öz münasibətini belə bildirmişdir.

Xərmöhrəyə layiq olmayan xər,
Səd heyf, cahanda tapdı gövhər.

Gövhər ağa qurub-yaratmaq arzusu ilə yaşayan el qızı olub. O, 1883-cü ildə Şuşa şəhərindəki İbrahim xan tərəfindən tikilmiş məscid köhnəldiyindən (1768-69) köhnə məscid binasının yerində yenisini tikdirmişdi. Şuşalılar arasında bu məscid «Gövhər ağa məscidi» kimi məşhurdur. Bu məscidin bir hissəsi də mədrəsə üçün ayrılmışdır. Hətta, «Məclisi-fəramuşan» ədəbi məclisi də dərsdən sonra hücrədə keçirilmişdir. Bakı əyalətinin qubernatoru Kolyubakinin köməyi ilə məscidin həy1ətində yonma daşlardan çərhovuz tikilmişdir.

O, 1888-ci ildə Şuşada vəfat etmişdir və məzarı Ağdamdakı İmarət deyilən qəbristanlıqdadır.

Gövhər ağanın bədii irsindən bizə çox az məlumat gəlib çıxmışdır. Bu da Azərbaycanca yazdığı yeganə bir beytindən və fars dilində yazdığı fərddən ibarətdir.

Həmin beyt və fərdlər bunlardır:

Arizin görmək əgər mümkün olur dünyadə,
Bir gedayəm ki, onu seyr edərəm röyadə.

Farsca yazdığı fərddin tərcüməsi:

Siz öz ev-eşiyinizdə qalın ki,
Biz evsiz-eşiksizdə olub da, getdik!

Əbülfət xan Tuti (1766-1839)

Xurşidbanu Natəvanın ən yaxın qohumu - əmisi Əbülfət xan Tutidir.

Əbülfət xan məşhur Qarabağ hakimi İbrahim Xəlil xan Cavanşirin oğludur. O, 1766-cı ildə Şuşada dünyaya göz açmış, saray mühitində tərbiyə almış, tanınmış alim və mirzələrdən dərs almışdır. Hələ məktəb yaşlarında görkəmli şair, dövlət xadimi mola Pənah Vaqifin köməyi ilə klassik üslubda lirik şeirlər yazmağa həvəs göstərmiş, yazdığı beyt və misralarda məhəbbətin ülviyyətinə, həyat gözəlliklərinə, ayrılığa aid dəyərli sözlər deməyə müvəffəq olmuşdur.

1797-ci ilin iyun ayında İran hökmdarı Ağa Məhəmməd Şah Qacarın Şuşada öldürülməsi Fətəli xana böyük təsir göstərmiş, o da Qarabağa divan tutacağı ilə hədələyirdi. İbrahim Xəlil xan da müharibə təhlükəsini aradan qaldırmaq məqsədi ilə oğlu Əbülfət xanı girov sifəti ilə Fətəli xanın hüzuruna göndərir. Gözəl, ağıllı qızı Ağabəyim ağanı da qiymətli cehiz və küllü miqdarda hədiyyələrlə şahın hərəmxanasına yola salır. Şahın Qarabağlılar üçün məqbul olan tələbləri yerinə yetirilir. Beləliklə də, kəskin münaqişə vəziyyətində olan tərəflər arasında barışıq cəhdi baş tutur.

İranda olarkən Əbülfət xan şəxsi ləyaqəti, davranışı, rəftarı ilə saraydakı rütbə sahiblərinin hörmət və ehtiramını qazanır. Şahın oğlu Abbas Mirzə ilə yaxın münasibətdə olur. Abbas Mirzə Əbülfət xanı özünə şəxsi yavər təyin edir. Əbülfət xan da bir sıra hərbi yürüşlərdə iştirak edərək, döyüş bacarığını göstərir. O həm də vəzifəsi, xidməti ilə əlaqədar İranın bir sıra şəhərlərində olur, bu qədim ölkənin tarixinə və mədəniyyət abidələrinə böyük maraq göstərir. Hindistana, İraqa və Əfqanıstana səfər edir.

Yaxın Şərq klassikləri ilə tanışlıq onun yaradıcılığına böyük təsir göstərir. Onun yazdığı şeirlərdə Hafizin, Füzulinin təsiri özünü hiss etdirir.

Füzuli kimi Tuti də öz məhbubəsi olan yeri özünə vətən hesab edərək yazırdı:

«Rüzgarım var idi, yar yanında ehtibarım olanda,
Nə qədər ki, etibarım var idi, xoş rüzgar keçirirdim».

Şair sözün müxtəlif məna çalarlarından istifadə edərək, yeni lirik lövhələr yaradırdı. Oxucunu düşündürən bədii təzadlar axtarıb tapır ki, bu da fikrə rövnəq verir.

Şairin şeirlərində ömrün bəzəyi olan xeyirxahlıq, nəciblik öz əksini tapır. Həyata bağlılıq, dünyəvilik, səadətə qovuşmaq onun əsərlərinin ruhunu təşkil edir.

1833-cü ildə Abbas Mirzə qəflətən vəfat edir. Bu da sarayda dərin bir məyyusluq yaradır. Əbülfət xan da istefaya çıxıb, həmişəlik olaraq hərbi qulluqdan uzaqlaşır. Ömrünün son illərini ədəbiyyata, şeirə, sənətə həsr edir. O, 1839-cu ildə vəfat edir. Qəbri Qum şəhərindədir.

Bir qəzəlini oxuculara çatdırmağı vacib sayıram:

Qəzəl
Ol gün kim, həsrət ilə o büti-zibadən ayrıldım,
Qalıb bir surəti-bihiss kimi, mənadan ayrıldım.

Çəkib əl xəlqdən Məcnun sifət səhraya üz qoydum,
Kəsilmiş səbrü tabim vəsli - Leyladən ayrıldım.

Mənə şümşadi-sərvi, bağiban, ərz etməgil hərgiz,
Yoxumdur meyli-gülşən, qaməti-tübadən ayrıldım.

Nolur şamü səhər ney tək sızıldar sineyi-zarim,
Mərizi-bəstəri-hicrin, dəmi-İsadən ayrıldım.

Fərəqin şiddətindən lal olur bu Tuti təbim,
Məzagim təlxdür kim, ləli-şəkkərxadən ayrıldım.

Qasımbəy Zakir (1784-1857).

Azərbaycan klassik şeirinin və xalq poeziyasının qüdrətli nümayəndələrindən biri də Xurşidbanunun bibisi oğlu Qasımbəy Zakirdir. O, XIX əsrin birinci yarısında parlayaraq həm lirik, həm də satirik şair kimi əbədi şöhrət qazanmışdır. Onun ədəbi yaradıcılığı haqda oxucularımız geniş məlumata malikdir. Odur ki, mən onun Xurşidbanu ilə qohumluğu və keşməkeşli həyatı haqda yazmağı məqsədə uyğun hesab edirəm.

Qasımbəy həm ata, həm də anna tərəfdən Cavanşir nəslinə məxsusdur. Cavanşir eli Qarabağda ən cəsur və döyüşkən tayfalardan biridir. Çox qədim tarixə malik olan bu tayfa hələ xanlıqdan əvvəl İranda və Azərbaycanda yüksək dövlət vəzifələri tutmuş, orduda fəal xidmət göstərmişlər. Qarabağ xanlığının əsası qoyulduğu gündən Zakirin babaları Şahəli şah, Şahverənbəy, Qasımbəy onun arxası, etibarlı dayağı sayılmışdır.

Ana tərəfdən o, İbrahim Xəlil xanın qız nəvəsidir. Qasımbəyin anası Azadbəyim xanın kəbinsiz arvadı Şahbəyimdən olan qızıdır, Şahbəyim isə Cənubi Azərbaycanın məşhur zadəganlarından olan Xoylu Abraxanın övladıdır.

İbrahim Xəlil xan qızı Azadbəyimi sarayın yaxın adamlarından sayılan Sarıcalı Əlibəyə qiymətli cehizlə gəlin köçürmüş, ondan da iki oğlu (Əlibəy, Qasımbəy) və bir qız nəvəsi Seydəbəyim dünyaya gəlmişdir. Deməli Zakirlə Xurşidbanu əslində bibi oğlu, dayı qızı olurlar.

Qasımbəy Əlibəy oğlu Sarıcalı 1784-cü ildə Qarabağda Cavanşir nücabələrinin ən sıx yaşadığı Ağdam yaxınlığındakı Yeddi təpədə yerləşən Sarıcalı kəndində doğulmuş, burada da pərvariş tapmışdır. Əvvəlcə doğma kəndlərində oxuyub yazmağı öyrənmiş, sonra isə Şuşada mükəmməl təhsil alaraq dünya elmindən bəhrələnmişdir. Hələ çox gənc yaşlarında şeir yazmağa həvəs göstərən Qasımbəy dövrünün Vaqif, Vidadi, Cəfəri, Şakir və Lənbərani kimi görkəmli şairlərdən sənətin sirrlərini öyrənmiş, gərgin əməyi, dərin mütaliəsi sayəsində klassik xəzinəyə yol tapmış və dünya şöhrətli şairlərdən biri olmuşdur.

Azərbaycan klassik şeirinin və xalq poeziyasının qüdrətli şairinin yaradıcılığı haqda əbədiyyət tariximizdə geniş və hərtərəfli yazılar dərc olurmuş, yaradıcılığı geniş təhlil olunaraq xalq kütləsinə çatdırılmışdır. Mən isə onun həyatında baş vermiş çətinliklərlə oxucumu qismən də olsa tanış etmək istəyirəm.

Ordu xidmətindən qayıtdıqdan sonra Qasımbəy Qarabağın sonuncu xanı dayısı Mehdiqulu xanın yanında qulluğa girir. O, kargüzarlıqdan təsərrüfat müdirinə, naibliyə qədər yüksəlir. Harada çalışırsa-çalışsın, xalqın dərdinə, kədərinə şərik olur. Ağıllı tədbirləri, xeyirxah məsləhətləri ilə qəlblərə yol tapır və sevilir. Dayısının tapşırıqlarını yerinə yetirdiyinə, göstərişlərinə qüsursuz əməl etdiyinə, həm də diqqətəlayiq söz ustası olduğuna görə Mehdiqulu xan Xındırıstan kəndini əkin yerləri ilə birlikdə Qasımbəyə bağışlayır. Bundan sonra Zakirin maddi vəziyyəti yaxşılaşır, ömrünün xoş

günləri başlayır. İyirmi evdən ibarət olan Xındırıstanda rahat və sakit həyat keçirən şair, kəndlilərlə mehriban dolanır, kənd ağsaqqalları ilə tez-tez görüşüb məsləhətlərin dinləyir.

Şairin müstəqil və firavan həyat sürməsi onu gözü götürməyənlərə ürək dağı olur.

Dayısının nüfuzundan çəkinənlər Xandəmirovlar ona dəyib-dolaşmır. Rəhmətlik Mehdiqulu xan dünyasın dəyişdikdən sonra düşmənlərin əl-qolu açılır, birləşib Bədrcahan bəyimin bir para kənd və yaylaq yerlərini əlindən alır, qohumlar Şirxan Ziyadxanovu dolaşdıraraq tutdurmuşlar. Sonra Qasımbəyin əli zəhmətə bağlı olan qardaşı oğlu Behbudbəyi qaçaq salmış və hiylə ilə öldürmüşlər. Bundan sonra Zakirin oğlunu, qardaşı oğlunu və əhli-əyalını ayrı-ayrı şəhərlərə sürgün etdirməklə ürəkləri soyumamışdır. Sürgündəkilərin xəracını ödəmək bəhanəsi ilə 489 manat (gümüş pulla) gəlir verən Xındırıstan kəndində sahibindən alıb, dövlət xəzinəsinə keçirmişlər.

Dostlarının köməyi ilə Qasımbəy Bakı sürgünündən qayıdarkən Xındırıstanda qalmağı məqsədəuyğun hesab etməmiş, özü dediyi kimi, olub-qalanını da satıb Şuşada qızının yanında qalmağı üstün tutmuşdur.

Fəqət xəsis və nadan adamlar onu burada da dinc yaşamağa qoymamış, gah şairə maddi zərər vurmuş, gah da ailə üzvləri arasında təfirqə salmağa çalışmışlar.

Zakirin ömrünün son illəri də xoş keçməmişdir. Sürgün illəri, hər cür məhrumiyyətlər, uğursuzluqlar şairi vaxtsız qocaltmış, cismini taqətdən salmışdır. Qasımbəy qoca vaxtlarında tək və kimsəsiz qalmış, demək olar ki, ehtiyacın qoynunda çabalamışdır. Şairin bu ağır yaşayış tərzini görən məğrur şair Gövhər ağa, Xurşidbanu, Rəhimbəy, Böyükbəy kimi xanın qohumları ona təmənnasız yardım göstərmiş, səlahiyyətli idarələrə, hətta senata müraciət edərək, onlardan dövlət təqaüdü istəmişlər. Təəssüf ki, bu kiçik təqaüdü alıb ehtiyacına sərf etmək «səadəti»də talesiz şairə nəcib olmamışdır. Firdovsi kimi, bir qapıdan barat gətiriləndə, başqa qapıdan da şairin cənazəsi əbədiyyət evinə köçmüşdür.

Çarın verdiyi fərmanda yazılmışdır: «1813-1857-ci ilə qədər olan müddətdə Rus dövlətinə göstərdiyi xidmətə görə suvari müsəlman alayının poruçiki Qasımbəy Əlibəy oğluna ayda 36 manat təqaüd təyin edilsin».

Qasımbəy Zakir 1857-ci ildə ağır xəstəlikdən və çəkdiyi əziyyətlərdən sonra vəfat etmiş, məzarı Şuşada Mirzə Həsən qəbiristanlığındadır.

Qasımbəy Zakirin Natəvanın xəstə vaxtlarında ona həsr etdiyi bir şeiri oxucuların diqqətinə çatdırıram

Ey bürc-səltənət, mahi ənbəri,
Düşməyəsən görüm ziyadən səni!
Gecə-gündüz budur haqdan diləyim,
Hifz eləsin yaman bəladan səni!

Sipəhri-bərinin hilalı, sənsən,
Şərafətdə mələk misalı, sənsən.
Gülşəni-Xəlilin nihalı, sənsən,
Barvər istərəm xudadən səni!

Məsvini çıxardan əşri-əlayə,
Salan üftadələr başına sayə,
Yetmişdə İshaqı verən Sarayə,
Qurtarsın bu rəncü inadən səni!

Bəstəri-möhnətdə bixurdü bixab,
Kimdir, ayə razı, çəkəsən əzab,
Ol saqiyi-kövsər eyləsin sirab,
Əzizim, daruyi-şəfadən sənə!

«Cübi-çini» nədir, qibləsən, nəsən?
Təəccüb eylərəm bu əhvalə mən.
Dəstigirin olsun Hüseyn Həsən,
Fərağət olasan cəfadən, səni!

Səqfi-sarayini, ey gülü-növrəs,
Həddi nədir edə nişimən, məgəs?
Tərcih verə gərək ağıl olan kəs
İsmətdə yüz huriliqadən, səni.

Tikilən evlərə atandı səbəb,
Pəyandazın olsa canlar, nə əcəb.
Cami-bəzmi-eysin daim ləbaləb,
Qalmayasan zövqü səfadən səni!

Bu nə keyfiyyətdir, bu nə macəra,
Rəyincə dolanmaz təqdiri-qəza?
Pədəri-mərhumun hər sübhü məsa
***Güneylərdə badi-səbadən səni.**

Şikəstə Zakirə veribsən əmək,
Əmək bilməyəni kor etsin nəmək!
Necə ki, baqidir həyatı, gərək
Unutmaya xeyir-duadan səni.
***Güneylərdə - səba yelindən qorunmaq mənasında işlənmişdir.**

Cəfərqulu Xan Nəva (1780-1867).

Cavanşirlər nəslinin davamçılarından biri də Xurşidbanu Natəvanın əmisi oğludur - Cəfərqulu Xan Nəvadır.

Cəfərqulu xan 1780-ci ildə Şuşada doğulub. O, İbrahim Xəlil xanın nəvəsi, Məmmədhəsən xanın oğludur. Cəfərqulu xan sarayda tərbiyə tapıb, təhsil almışdır.

O, xalq yaradıcılığına, musiqiyə, ədəbiyyata böyük maraq göstərmiş, onun ən gözəl xüsusiyyətlərini özündə əks etdirmişdi. Əvvəlcə «Arif» imzası ilə

həm klassik, həm də xalq yaradıcılığı üslubunda şeirlər yazmış, sonralar isə «Nəva» təxəllüsünü qəbul etmişdir. Cəfərqulu xan Qasımbəy Zakir, Məhəmmədbəy Aşiq, Mirzəcan Mədətov və Mirzə Həsənlə müasir olmuş, Maralyanlı Aşıq Pəri ilə şeirləşmişdir.

Atası Məmmədhəsən xanın vaxtsız ölümündən sonra, ömrü boyu Qarabağ xanlığını ələ keçirməyə çalışmış, lakin arzuları baş tutmamışdır. Səbəb o idi ki, Qafqaz canişini A.P.Yermolov Azərbaycan xanlıqlarının ləğvi üçün çalışırdı, 1822-ci ildə Azərbaycanda çarizm əleyhinə hərəkatının artması vaxtı Cəfərqulu xan ailə üzvləri ilə bərabər Simbirskə sürgün edilmiş, oradan da Peterburqa göndərilmişdir. Sürgündə olduğu zaman o, polkovnik rütbəsi daşıyırdı. Rusiyada on ilə yaxın yaşamış, sonra dövlət tərəfindən bəraət almış, illik təqaüdlə Vətənə qaytarılmışdır. Əvvəllər sahib olduğu kəndlərin, yaylaqların və karxanaların bir hissəsini özünə vermişlər. Bundan sonra Cəfərqulu xan varlı və kefcil bir həyat sürmüşdür. Əvvəllərdə qeyd etdiyim kimi o, musiqiyə böyük ehtiram bəsləyər, sənət adamlarını özünə dost tutar, məclisləri sazsız, tarsız, xanəndəsiz olmaz, bayramları ilə neysiz, nağarasız və zurnasız keçməzmiş. Muğam yarışına, aşıq deyişməsinə qulaq asmaqdan yorulmazmış.

Hətta yarış meydanında qələbə çalanlara ənam verərmiş. Deyildiyinə görə, bəzən özü də pəhləvanlarla güləşər, əksəriyyət halda qələbə çalarmış, əlsiz-ayaqsızlara, köməksiz xəstələrə əl tutarmış. Rus dilini yaxşı bildiyindən dövlət idarələri ilə, vəzifəli şəxslərlə yaxın münasibətdə olar, hər yerdə də sözü keçərmiş.

Cəfərqulu xan 1850-ci ildə yetmiş yaşının tamam olması münasibəti ilə general-mayor çininə layiq görülmüşdür.

M.F.Axundov, Mirzəcan Mədətov, Xasay xan Usmiyev və Mirzə Adgözəlbəy Cəfərqulu ağa ilə yaxın dost olmuşlar. Onun Qasımbəy Zakirə də qohumluğu çatır. Ancaq xanın kobud zarafatları, tündməcazlılığa, namünasib hərəkətləri - Zakirin xoşuna gəlmədiyindən aralarında soyuqluq olmuşdur. Hətta, xan iri gövdəli, qəddi-qamətli olduğundan Zakir onu «Yekəpər» adlandırmış M.F.Axundov məktublarının birində bu kəlməni işlədərkən Cəfərqulu xana işarə vurmuşdur.

Getmə-getmə deyib, qoydu yuxuya
Axırda itirdi Yekəpər məni.

Bu beytdə Cəfərqulu xanın Xındırıstan münaqişəsi zamanı Zakiri arxayınlaşdırıb, Tiflisə şikayətə getməkdən çəkindirməsinə işarədir.

Cəfərqulu xan Xurşidbanu Natəvanın əmisi oğludur.

Xan qardaşı qızının üzüyünün qaşına yazdığı şeirin tərcüməsi belədir:

Oturmuş mələklə diz-dizə,
Fatimənin Kənizi - Xurşid - banu.

Deyilənə görə, uzun illərdən sonra Vətəni Şuşaya qayıdan Cəfərqulu xan sərin bulaqdan su içə-içə bu bayatını demişdir:

Əziziyəm, bir də mən,
Doldur içim, bir də mən,
Ömür keçdi, gün keçdi,
Cavan olmam bir də mən.

Cəfərqulu xan 87 yaşında ikən 1867-ci ildə Şuşada ömrünü başa vurmuş, İmarətdə dəfn olunmuşdur.

Nəva açıq və sadə dildə, heca vəznində yazdığı şeirləri ilə Vaqif ədəbi məktəbinin davamçısı hesab olunur, Nəvanın şeirlərində nikbinlik, səmimilik, səlis və sadəlik, onun lirikasının əsasını təşkil edir.

Şeirlərdən nümunələr:

Zakirə cavab
Qasımbəy, adətdir, xan qulluğunda
Bir kəs atlı gəlsə, piyada gedər!
Mən deyiləm, aləmdə var, eldə var,
Belə cüzi işlər arada gedər.

Burda bir başmaq olub zərərin,
Qələm alıb yazdın zəmmin bu dərin,
Zalim, yoxdur məgər sənin xəbərin,
O dərddən kim, aləm fəsada gedər?!

İndi belə görmə Adıgözəli,
Səndən qıvraq idi onun əzəli,
Hər zaman ki, oturub yola düzəli,
Yenə bədöv atdan ziyada gedər.

Gəda, saf azıbdır əməlin sənin,
Mədənisən təqəllübün, fitnənin,
Sən neçin bilməzsən, bağlı gələnin,
Ayağı açılıb piyada gedər.

Oğlan, lap çıxıbsan sən əndazədən,
Heylər hələ gedəcəksən yazatən.
Köhnə oğurlandı tikər tazədən,
Bir Adam yollaram ustadə gedər.

(Bu şeirdə Zakir Cəfərqulu xanın evinə qonaq gəldiyi vaxt zarafatla onun başmağının oğurlanmasına və Kapitan Mirzə Adıgözələ işarə edilmişdir).

Şuşa qazısı Mirzə Əbülqasım haqqında

Matəmi böylə tutarmış məgər adəm, qazı?
Edə lənət ona bəs sahibi-matəm, qazi!

Siz məgər halını öz əhlinizin bilməzsiz?
Zərrəcə bəd əməlindən eləməz qəm, qazi!

Daima vəz eləyir xalqa ki, ehsan eyləyin
Özü heç dişqarı verməz, ola gər nəm, qazi!

Daş-daş üstündə belə Şişədə durmaz hərgiz,
Bəzi işlərdə əgər olmasa ələm qazi!

Adını molla qoyan xalqa deməz rast yolu,
Onların dərdi edibdir qəddini xəm qazi!

Unudurlar hamısı tarı, peyğəmbər, əmrin,
Gər aramızda ola söhbəti-dirhəm qazi!

(Bu şeirdə Mirzə Əbdülqasım Şuşada şəriət məhkəməsinə rəhbərlik etmiş, «Qazi» təxəllüsü ilə şeirlər yazmış, məktəb açıb cavanlara fars və rus dilində dərs keçmiş, o, İsfahanda təhsil almış, Hacı Molla Əhmədin tələbəsi olduğuna işarədir).

AŞIQ PƏRİYƏ

Aşıq Pəri, kağız sənə yetişəcək,
Durmayıban Kərri-buda gələsən.
Tovus quşu kimi, ya mürgi-tuti
Gəzəcəksən yəqin əldən-ələ sən.

Lənət gəlsin Fərhadın imanına,
Salıb Şirin kimi səni yanına.
Salacaqsan pomoşnikin canına,
Görəcəksən bisəbəvü lülə sən.

Şəşlikə olmazsan sultanı, xanı
Eyləyirsən şahlər kimi divani
Sən Qədirdə olan neyü zurnanı
Görmüyübsən, görsən məgər gələsən.
(Şeirdəki «Kərrü-buda» - Qarabağda kənd adıdır.
Qədir - məşhur zurnaçı olmuşdur).

Fətəli bəy Hali.

O, Gəncə hakimi Cavad xanın nəslindəndir. Fətəli bəy Hali Natəvanın ana tərəfdən yaxın qohumlarından biridir. Abbasqulu ağa Bakıxanovun «Gülüstani İrəm» (Əlyazması) əsərindən öyrənirik ki, o, xoşsifət və dərin məlumata, rəvan təbə malik olan şəxs olub. Azərbaycan və fars dillərində məzmunlu şeirlər yazmışdır. Fətəli bəy XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Gəncədə yaşayıb, uzun illər dövlət qulluğunda çalışaraq, qalabəyi vəzifəsinə qədər qalxmış, xanlığın ləğvindən sonra isə Gəncədə Teymurxan - Şurada divan dəftərxanasında tərcüməçiliklə məşğul olmuşdur.

Onun Azərbaycan dilində yazmış olduğu tək bir məşhur beyti bizə gəlib çatmışdır.

Oldu gözəl ömür sərf, heyif ki, nadanlığa,
Hər nə qalıb sərf olur, indi də peşmanlığa.

Kəlbəli xan Müsahib Gəncəvi.

Natəvanın yaxın qohumlarından biri də Kəlbəli xan Müsahib Gəncəvidir.

Kəlbəli xan Cavad xanın nəvəsi, Gəncə və Qarabağ bəylərbəyi Ziyad xanın oğludur. Doğulduğu və öldüyü tarixi dəqiq məlum deyildir. Lakin bəzi təzkirələrdə verilən yazılardan aydın olur ki, o, ağıllı və hüşyar, zirək bir adam olmuş, şeirə, sənətə, elmə böyük maraq göstərmişdir. Kəlbəli xan qoşun sərkərdəsi olmuş, bir çox hərbi yürüşlərdə, münaqişələrdə şəxsən iştirak etmişdir. Şirin söhbətləri, duzlu danışığı ilə insanlarla tez ünsiyyət yaratdığı üçün özünə «Müsahib» (həmsöhbət) təxəllüsü götürmüşdür.

Kəlbəli xan Müsahibin Azərbaycan və fars dillərində yaratdığı şeirləri şair xəyalının məhsulu olub, dərin məna və fəlsəfi məzmun kəsb etmişdir.

Şairin ana dilində yazdığı tək bir fərdi qalmışdır ki, burada da müəllifin həyata və varlığa fəlsəfi münasibəti öz əksini tapır:

Cahanda çox yaşadıq, bilmədik cahanda nə var,
Ölüm gələydi, gedəydik, görəydik onda nə var.

Axund Molla Abbas Cavanşir (1817-1869).

Xurşidbanu Natəvanın və Qasımbəy Zakirin yaxın qohumlarından biri də Axund Molla Abbas Cavanşirdir.

Axund Molla Abbas Cavanşir Xurşidbanunun və Qasımbəy Zakirin yaxın qohumlarındandır. İbrahim Xəlil xanın Bikə ağadan olan oğul nəvəsidir. Molla Abbas xan övladlarından fərqli olaraq daha çox elmə meyl göstərmiş, ömrünün çox hissəsini oxumağa və ruhani təhsili almağa sərf etmişdir. O, demək olar ki, bütün elmləri - riyaziyyatı, həndəsəni, ədəbiyyatı kamil dərəcədə öyrənmiş, məntiq və hipnoz elmlərindən də xəbərdar olmuşdur. Molla Abbas əksər ömrünü Kürdüstanda keçirmiş və müfti mənsəbinə qədər yüksəlmişdir. O, 1817-ci ildə Qarabağın Sarıcalı kəndində doğulub boya-başa çatmışdır. İlk təhsilini doğma kəndlərində olsa da, onunla kifayətlənməyib, təhsilini davam etdirmək məqsədi ilə vətənin hüdudlarından kənarda oxumaq qərarına gəlmişdir. Təzkirəçilərin yazdığına görə «Sineyi - səqir» deyilən yerdə ruhani təhsili almış, sonra öz vətəninə uzun müddət qayıtmamış, qürbətdə həyat keçirmişdir.

Molla ömrünün əllinci yaşında Şuşaya gəlmiş, orada yeni üsulla açılan məktəblərdə müəlliməliyə başlamış və astronomiyaya, riyaziyyata aid kitab və dərsliklər tərtib etmişdir. Məşhur alim, şair və təzkirəçi Mir Möhsüm Nəvvab onun tələbəsi olmuşdur. Nəvvabın əsərlərində Molla Abbasın ədəbiyyatı çox yaxşı bildiyi, riyaziyyat və astronomiya elmləri sahəsində əvəzsiz alim olduğun və əvəzsiz şair olduğunu xüsusi qeyd etmişdir.

Molla Abbas Şuşada çox qala bilməyib. 1868-ci ildə yenidən Kürdüstana qayıdır. Camaat ona böyük etimad və hörmət göstərərək özlərinə müfi seçirlər. Həyatının sonuna qədər bu vəzifədə çalışan Molla Abbas, 1869-cu ildə ömrünü qürbətdə tamam edir və orada da dəfn olunur.

Molla Abbasın şeirlərində ən ulu varlıq, real obyekt insandır. Həyatda nə varsa, onun fikrincə, insan zəkasına, qayğısına və ünsiyyətinə möhtacdır. Təbii gözəlliklər də öz həqiqi ifadəsini, əsl mənasını insanda tapır. Məhəbbət isə insana məxsus olan ali bir hiss, ülvi bir məqsəddir. O, «Yazmış» rədifli qəzəlində gözəli belə rəsm etmişdir:

Rüxün səthində xətti-hüsn kim, lövhü qələm yazmış,
Cabinin lövhi üzrə ol zəmin, əqiqi-rəqəm yazmış.
Qəddindir bir əmr kim, çəkmiş xameyi-qüdrət,
Ayırmış ol əlifdən lam zülfün, necə xəm yazmış.

Molla Abbas ruhani təhsili alıb, din xadimi olsa da, həyata, varlığa açıq gözlə baxmış, Zakir kimi o də məhəbbəti eşq əhlini səvaba yetirən, onu tərbiyə edən bir mənbə, insana qüvvət və hərarət verən bir amil kimi qiymətləndirmişdir.

Molla Abbas yaradıcılığında M.F.Axundovun, Qasımbəy Zakirin və Ə.Nəbatinin təsiri duyulur.

Şairin yaradıcılığına aydın təsəvvür yaratmaq üçün qəzəllərindən örnəklər veririk.

Qəzəllər
Gül deyil mətlubumuz, gülşəndə cüt tutduq vətən,
Bəlkə gül rüxsarilər yadilə yad etdik çəmən.

Sərb çün öz qamətin bənzətdi qəddi-yarimə,
Sərzənişlə başını paküb edir zağü zəğan.

Şöleyi-nari-tənim Kim, yandırır hər kinsbəyi,
İstərəm cildi-Səməndərdən tikəm bir pirəhən.

Görüb böylə halimi, sordum qəmü əhvalini,
Kim, təni üzrə toxur ol dağdən əqdəm bir kəfən.

Mən kim bir guşədə qəm çəkməyə tab etməyib,
Qaçdı Məcnun kuhi səhrayə cəfayi-yaridən,

Gər ümmüdü-vəsl ola, mən bir səri-müjgan ilə,
Dəlləm ol dağı ki, fulad ilə dəlmiş kuhikən.

Şöleyi-ahim mənə rövşən qılır hər gülbəyi,
Hacətim yox şəm ilə rövşən qılam kaşanə mən.

Çün mənə qürbət vətəndir, qürbətimdir bu vətən,
Hər zaman Abbasa olmuş əhli-qürbət həmsüxən.

***
Tərfi-rüxsarə nə xoş xülfi-xəmin pirayə,
Guya əbri-siyah halə urubdur ayə.

Çıxma gün qarşısına, ruyinə düşdükcə günəş,
Yüzünə zəxm urar zülf salanda sayə.

Səndə bu qədər həlavət ki, sərapa görünür,
Səni guya əmizib şirü şəkərdən dayə.

Gər bildim bu qədər hicri-cəfasın çəkirəm,
Bin Ədəm içrə bəni-bəs sabiq idim ünqayə.

Gər vəfa görsəydi əhli-zamandan Məcnun,
Mürği-vəhşilər ilə düşməz idi səhrayə.

Görməmiş qeyri cəfanı sitəmi-qürbəti qəm,
Bilməzəm ki, kim neçün Abbas gəlib dünyaya.

Mirzə Məmmədqulu Həkim (1819-1875)

Mirzə Məmmədqulu Həkim də Natəvanın uzaq qohumlarındandır.

Mirzə Məmmədqulu bəzən «Həkim», bəzən də «Təbib» imzası ilə şeirlər yazmışdır. O, Molla Hüseynin oğlu, Molla Qaibin nəvəsi və Mirzə Məmmədəlinin nəticəsidir.

İranda baş verən iğtişaşlar və qətillərdən sonra orada qala bilməyib, bir neçə həmyerliləri ilə Qarabağa köçmüş, vətəni ilə əlaqəni tam kəsmişdir. O vaxt o, Nadir şahın münşilərindən biri olmuşdur.

Qarabağda Veysəlli tayfasına qoşularaq bilik və fərasəti nəticəsində sayılan bir mövqe tutmuşdur. Veysəlli kəndi Füzuli rayonu yaxınlığında bir kənddir. Qarabağ xanlığının əsasını qoyan Pənah xan Mirzə Məmmədəlini hələ İrandan tanıyırdı. Odur ki, onu özünə münşi təyin etmişdir. 1751-ci ildə şuşa şəhəri bina olunanda Məmmədəlinin cavanşir elindən evlənən böyük oğlu Qib də ailəliklə köçüb Suşaya gəlmişdir. Onun oğlu Molla Hüseyn, nəvəsi Məmmədqulu da Şuşada dünyaya gəlmişlər.

Məmmədqulu ilk təhsilini Şuşadakı mollaxanada almış, ata-baba yolu ilə getmək istəməmiş, həkim olmaq arzusu ilə İrana getmişdir. Qədim mədəniyyət mərkəzi olan İsfahanda məşhur şərq alimlərindən üç ilə yaxın tibb elmini öyrənib həkimlik sənətinə yiyələnmişdir.

Mirzə Məmmədqulu Şuşaya qayıtdıqdan sonra Bəhmən Mirzənin sarayında həkimliklə məşğul olmuşdur. Tibbə aid zəngin kitabxana yaradır. Hərdən bir ana dilində və farsca məzmunlu şeirlər yazan Mirzə Məmmədqulu tez-tez Xurşidbanunun təşkil etdiyi «Məclisi-üns» məşğələlərində iştirak edirmiş. Haqqında qısa məlumat verilən şair incə ruhlu, oynaq vəznlərdə şeirlər, qəzəllər yazarmış, 1875-ci ildə 52 yaşında Şuşada vəfat etmişdir.

Mirzə Məmmədqulu həkimin lirikasında saf duyğuların, bəşəri hisslərin tərənnümü əsas yer tutur. Hətta, gözəlliyə məftunluq, qələbəyə ümid onun şeirlərində güclü yer tutur, şairin farsca yazdığı bir şeirində təbiətin qanunauyğunluqlarını izah edərkən belə bir fəlsəfi təzad işlədir:

«Bəli, saqi-fələyin camında cahana xəl meyni paylayan zaman, camaat da məclislərdə badə qaldırıb nuş edir».

(Bəli, cahan cami-fələk saqi xəli mey
Xəlayiq badə nuş məclisi-bey).

Mirzə Məmmədqulu Natəvanın xahişi ilə yazılan mədhiyyəsin oxuculara təqdim edirəm.

Pərişan zülfün mah üzrə canan sayəban eylər,
Cahan əhli odur kim, ay tutulacaq min fəğan eylər.

Görəndə zülfi-pürtabi məh üzrə mürğ-dil hər dəm,
Sanar kim, mari-əfidir, onunçün əl-aman eylər.

Qaşın tiğü, müjgən peykan: çəkiblər qəsd can üzrə,
Ləbin bir abi-heyvandır, həyati cavidan eylər.

Rəqibi məhrəmi-kuyin görəndə aşiqi-zarin,
Həsəd bir dəfədə ya öldürür, ya nimcan eylər,

Üzarın atəşindən qorxuram yandırasan üşşaqi,
O bir oddur, ona düşcək, Xəlilə gülsitan eylər.

Təbib ol vaxt xoşbəxtdir belə şeiri kəzafindən,
Ki, məqbuli-hüzuri-həzrəti-ol Natəvan eylər.

Geysu xanım Cavadbəy qızı (1907-1985)

Kitabın əvvəlində Xurşidbəyim Natəvanın yaxın qohumlarından biri olan Geysu xanım Cavadbəy qızı

O, 1907-ci ildə indiki Zəngilan rayonunun Zəngilan kəndində bəy ailəsində təvəllüd tapmışdır. Geysu xanım və həyat yoldaşı Cavanşirlər nəslindəndir. Babaları Məhəmməd bəy Cavanşir 1776-cı ildə Şuşada anadan olmuşdur. **Geysu xanımın əmisi oğlu Vahid Cavanşirov (Xosrov bəyin oğlu) danışır ki, Məhəmməd bəyin atası Behbud bəy Şuşadakı mal-mülkünü övladları arasında bölmüş və oğlu Məhəmməd bəy isə öz** Şuşadakı mülk-malını kiçik qardaşı Böyük bəyə verib, özü gəlib Zəngilada varidat sahibi olmuşdur. Hazırda Məmmədbəyli adlanan kənd əvvəlcə torpaq sahəsi olmuş, orada maldarlıqla məşğul olduqlarından «tərəkəmə» adlandırılmışdı. Müxtəlif səbəblərdən çar senzur idarəsi onu Ordubada sürgün etmişdir. Məhəmməd bəy Ordubadda yaşadığı vaxt tərəkəmə camaatı həmin sahədə kənd salmaq arzusunda olduqlarını və həmin kəndə Məmmədbəyim adının verilməsinə razılıq verməsini ondan xahiş etmişlər. O, bir daha ora qayıtmayacağını bildirir və kəndə adının qoyulmasına razılıq verir. O vaxtdan da bu kənd Məmmədbəyli adlanır.

Məhəmməd bəy Cavanşir 1861-ci ildə vəfat etmişdir. Məzarı Ordubad rayonu Xanağa kənd qəbrisğtanlığındadır.

Məhəmməd bəy Cavanşirin atası Behbud bəy də Qarabağda məşhur olan Cavanşirlər nəslindəndir. Məhəmməd bəy Cavanşir (bəzən «Zəngilanlı» ləqəbi ilə məşhurlaşmışdır). Oğulları Beyhbud bəy, Əbdüssəməd bəy (Bu nəsildə iki Əbdüssəməd bəyin Adı çəkilir. Birinci Adı çəkilən Əbdüssəməd bəy İbrahimxəlil xanın qardaşı oğludur. O, İrandan girovluqdan qaçarkən güllə ilə vurulmuşdur. İkinci Əbdüssəməd bəy Məhəmməd bəyin oğludur. O qohumluq xavtirinə oğlunun adını Əbdüssəməd bəy qoymuşdur, Haqqında söhbət açdığımız Əbdüssəməd bəy Geysu xanımın babasıdır) və Teymur bəydir.

Məhəmməd bəy Cavanşir və Əbdüssəməd bəydən sonra onun oğlu Cavad bəy də (Cavad bəy, Xosrov bəy Əbdüssəməd bəyin oğulları idi) Zəngilan bəylərindən biri olmuşdur. O, ömrünü camaatının firavan dolanmasına həsr etmiş, böyük mal-mülk sahibi olmuşdur.

Sovet hakimiyyəti qurulduqdan sonra, var-dövləti əlindən alınmışdır.

Zəngilanın ilk alim qardaşları - Atlıxan və Ziyadxan Məmmədovlar onun xalqla rəftarı, xeyirxahlığı haqda dönə-dönə danışardılar.

Cavadbəy ömrünün sonlarını ağır məşəqqətlər içərisində keçirmiş, sahibi olduğu Zəngilan kəndində vəfat etmişdir. Məzarı Qıraqışlaq kənd qəbristanlığındadır.

Cavanşirlər nəslindən olan Geysu xanımın atası Cavad bəy və anası Dilarə bəyim xanım da bu nəsildəndir.

Geysu xanımın anası Dilarəbəyim xanım da az-çox təhsil almış, musiqiyə meyilli olmuş, qarmon çalmağı çox sevər və bu sahədə müəllimlik də edərmiş. Həyat yoldaşı Cavad bəyin vəfatından sonra qızı Diləfruzlə birlikdə Ordubada getmişdilər. Uzun müddət orada yaşamış və musiqi müəllimi kimi fəaliyyət göstərmiş, 1960-cı ildə vəfat etmişdir.

Onların iki oğlu (Mürvət bəy, Qüdrət bəy) və dörd qız övladları (Dürrə, Geysu, Dilövsə, Hıveyda) olmuş, özlərinin sağlığında böyük qızı Dürrə xanım ata-baba qaydası ilə İranın Qaradağ kəndinə gəlin köçmüşdür. Orada uzun müddət yaşamış və dünyasını da Qaradağ kəndində dəyişmişdir. Üç oğlu, iki qızı var. Onlar da hazırda İranın Tehran şəhərində yaşayırlar.

Dilarəbəyim xanımın ikinci qızı Dilövsə də anası ilə birlikdə Ordubada getmiş, orada ailə həyatı qurub yaşamış, bir qız və bir oğlan anası olmuşdur. Hər iki övladları - oğlu Famil, qızı Ulduz da Qubadlı rayonunda ailə səadətinə çatmışlar. Bu səbəbdən də anaları onların yanında olmuş, Qubadlının Dəmirçilər kəndində dünyasın dəyişmişdir.

Geysu xanım yetkinlik yaşına çatanda rayonun Şərikan kənd sakini, Nəbiyalı bəyin oğlu Atakişi ilə ailə həyatı qurmuşdur. Atakişi Nəbiyalı oğlu dövrünün qabaqcıl ziyalılarından biri olmuş, Azərbaycan, fars və rus dillərini mükəmməl öyrənmişdir. «Rus-tatar» məktəbi açılarkən (Zəngilan kənddə) məktəblər üzrə inspektor-nəzarətçi vəzifəsinə işləmişdir. Atakişi Hüseynov rus dilini mükəmməl bildiyi üçün Tiflisə çağrılır, Zaqafqaziya Dəmir Yolu idarəsinin «Ələtprest» stansiyasına rəis təyin edilir. Uzun müddət bu vəzifədə işləmiş, 1938-ci ildə qəflətən vəfat etmişdir. Məzarı Bakının Çənbərəkənd qəbristanlığındadır.

Onların dörd qızı, bir oğlu olmuşdur. Oğlu balaca ikən ölmüş, atasız qızların ağırlığı Geysu xanımın üzərinə düşmüşdür. Bu fədakar xanım bütün

çətinliklərə dözərək, övladlarının təlim-tərbiyəsi ilə ciddi məşğul olmuşdur. Doğrudur, bu övladların boya-başa çatmasında əmiləri Baxış Nəbyalı oğlunun yaxından və böyük köməyi olmuşdur. Hətta qızlardan birini - Rəfiqəni özü ilə yaşadığı Mincivan kəndinə aparıb, öz övladı kimi təhsil, təlim-tərbiyəsi ilə məşğul olmuşdur.

Geysu xanımın böyük qızı Rüxsarə Tibb institutuna daxil olmuş, ailə səadətinə çatmış, iki oğul anası idi.

İkinci qızı Rəfiqə 14 yaşınadək əmisinin himayəsində yaşamış, sonra anasının yanına Bakıya gəlib Tibb Texnikumuna daxil olmuş, oranı qurtardıqdan sonra işləyə-işləyə Bakı DU-nin filologiya fakültəsinə daxil olmuş (qiyabi), 1959-cu ildə ailə səadətinə nəsib olmuşdur. Üç oğul, bir qız anası idi. 42 il şərəfli müəllim adı daşımış, uzun müddət qüsursuz əməyinə görə «Əmək veteranı» medalı ilə təltif edilmiş və «Baş müəllim» adına layiq görülmüşdür. 2008-ci il mart ayının 18-də həyatla vidalaşmışdır.

Geysu xanımın üçüncü qızı Şəfiqə xanım da ali təhsilli rus dili müəllimi kimi Bakının 174 №-li məktəbində fəaliyyət göstərmiş, ailə həyatına nəsib olmuş, iki oğul, bir qız anası idi.

Oğladlarını - oğlanları ali təhsilli mütəxəssis, qızı isə ali təhsilli rus dili müəllimidir.

Geysu xanımın sonuncu qızı Şərqiyyə də tibb bacısıdır, ailəlidir.

Cavadbəy qızı Geysu xanım zadəganlıq qürurunu qorumuş, övladlarını Cavanşirlər nəslinə layiq tərbiyə etmişdir. O, həmişə də fəxrlə deyərdi: Mən, Cavanşirlər nəslindənəm, natəvanlar yetirən xalqın övladıyam.

Geysu xanım söylədiklərindən Natəvanın çox arif adam olması bəlli olur. O, bibisi nəvəsi Natəvanı xatırlayaraq, ondan eşitdiyi bir xatirəni belə söyləyir: «Baharın ilk çağı gül-çiçəyin açdığı su kənarında baharın ilk müjdəsindən biri olan yarpız təcəcə çıxmışdır. Kasıb bir kəndli qadını ehtiyacını nəzərə alaraq təzə-tər yarpızdan dərib tğəmiz bir dəsmala büküb onu Natəvan xanıma hədiyyə etmək üçün Xan qızının imarətinə gəlir. Elə bu vaxt Xurşidbanu balkonda oturub təbiətin bu gözəlliyini seyr edirmiş. Bu vaxt bir kəndli qadının onun imarətinə tərəf gəldiyini görür, nökərə tapşırıq verir ki, o qadını mənim yanıma gətirin.

Qadın gəlib əvvəlcə xanımı ədəb-ərkanla salamlayır və əlində dəsmala bükdüyü baharın ilk nümarı olan yarpızı xanıma təqdim edir. Xan qızı qadının məqsədini başa düşür, bu kasıb kəndli qadına pul, pal-paltar, xeyli ev əşyaları verir. Kəndli qadın sevinə-sevinə evinə gedəndən sonra nökərlər, - xanım o, nə gətirmişdi ki, ona var-dövlət verdiniz, -deyirlər.

Xan qızı:

- O, ehtiyac üçün baharın ilk nümarı olan yarpızı mənə gətirmişdir. Onun ehtiyacı üçün verdiklərim hələ çox az oldu (Burada deyirlər:-Ağanın malı gedər, nökərin canı)».

Geysu xanımın əmisi oğlu (Xosrov bəyin oğlu) Vahid Cavanşirovun xatirələrindən:

BİRİNCİ XATİRƏ: Bir gün əmim qızı Geysu xanıma zəng edib, əhvalını soruşanda çox narazı halda dilləndi:

- Necə olac\ağam, atam Cavad bəyin hakimiyyəti dövründə xalqın üzərində yüngül vergilər təyin etmişdir. Kim bu vergini vaxtında verməsəydi, onun mal-qarasından sağlam bir inəyini cərimə üçün gətirdib həyətimizdə bağladardı. Ta ki, vergi ödənilənədək.

Nökərlər də o inəkləri sağıb südünü biz uşaqlara içirdərdilər. O cəriməyə gətirilmiş inəklərin südünün ağrısı indiyə kimi canımdan çıxmır.

İKİNCİ XATİRƏ: Mən görmək Geysu xanımı görmək, səhhətini xəbər almaq üçün onlara getmişdim. Hal-əhval tutmuşdum ki, qızları Rüxsarə, Şəfiqə və Şərqiyyə də analarını görməyə gəldilər. Qızlar hal-əhvaldan sonra ev-eşiyi səhmana salmağa başladılar və ədəb-ərkanla gözəl bir süfə açdılar, gətirdikləri naz-neməti süfrəyə düzdülər. Qızların bu hərəkətini mən və Geysu xanım diqqətlə izləyirdik. Birdən Geysu xanım soruşdu:

- Qızlar, bu dəm-dəsgah, bu süfrə xeyi rola?

Qızlar:

- Ana, biz sənin bayramını təbrik etməyə gəlmişik.

-Nə bayram, hansı bayram?

- Bəs bilmirsən, bu gün Oktyabr İnqilabının qalib gəldiyi, yeni qurulmuş Sovet Hakimiyyətinin bayram günüdür?!

Geysu xanım narazı bir səslə:

- Ay balalar, nə bayram, bu gün atamın evinin yıxıldığı gündür…

Geysu xanımın nəvəsi Azər Tağıyevin nənəsi haqqında xatirələrindən:

BİRİNCİ XATİRƏ: Nənəm çox şahanə bir qadın idi - həm yaşantılarına, həm düşüncələrinə görə. Sürdüyü keşməkeşli həyat, min-bir əziyyətli günlər taleyində dərin izlər buraxmışdı.

Nənəmin özünəməxsus xüsusiyyətləri var idi. Ovqatının təlx olan vaxtı onu heç nə ilə ovutmaq mümkün deyildi. Bu əhval-ruhiyyədən çıxmaq üçün deyərdi:

A bala, mənim plastinkamı gətir!

«Plastinkanı» deyəndə Ağabala Abdullayevin «Zabul segah» muğamını ifa etdiyi valı nəzərdə tuturdu. Və biz də tez onu tapıb gətirərdik. Sonna qədər qulaq asandan sonra rahatlıq tapırdı.

İKİNCİ XATİRƏ: Nənəm tirmə şalını da Xurşidbanu Natəvan kimi bağlayardı. Biz gözümüzü dünyaya açandan ömrünün sonuna kimi onu beləcə gördük.

Bir neçə aydan bir deyərdi:

A bala, məni oraya apar!

«Oraya» deyəndə Xurşidbanu Natəvanın «Azərbaycan» kinoteatrının yanındakı heykəlini nəzərdə tuturdu.

Aparıdıq Xurşidbanu Natəvanın heykəlinin yanına. Balaca bir kətili var idi. Həmişə gedəndə özü ilə götürərdi. Heykəlin önündə kətilin üstündə orturar, iki saata yaxın sadəcə tamaşa edərdi. Ta o anlarda nənəmin nə düşündüyünü biz bilməzdik.

***

Azərbaycanın mədəniyyət tarixində özünəməxsus yer tutan söz sahiblərinin, o cümlədən Xurşidbanu Natəvanın həyat və yaradıcılığı hələ də yetərincə tədqiq olunmayıb. Zamanında külliyyatı əldə edilmədiyindən indi araşdırma aparmaq çox çətindir. Bu baxımdan əlimizdə və yaddaşımızda olanları toplayıb gələcək nəsillərə çatdırmaq olduqca vacibdir.

Əgər bu işlər bu gün görülməsə, aradan müəyyən zaman kəsiyi keçəndən sonra istinad mənbələrimiz daha da azalacaq. Ümidvaram ki, ədəbiyyat tariximizin tədqiqatçıları bu kitabda Geysu xanımın dediklərindən də bəhrələnib gələcəkdə Xan qızı ilə bağlı pünhan qalan bəzi məqamların izinə düşə biləcəklər. Unutmayaq ki, bu sənətkarların hər biri mədəniyyət tariximizin bir parçasıdır.

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

1. Bəylər Məmmədov. «Natəvanın şair qohumları haqqında». 1989-cu il.

2. Mirzə Camal Cavanşir Qarabağı (Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı). Bakı, 59-cu il.

3. Qarabağın tarixi. Qarabağın baməzə adamları (Bəylər Məmmədov. 1992-ci il).

4. Bəylər Məmmədov - Xurşidbanu Natəvanın əsərləri. Lider nəşriyyatı, 2004.

5. «Azərbaycan ədəbiyyatı tarixi».Üç cilddə, II cild. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı 1960.

6. «Azərbaycan dilinin izahlı lüğəti». III cild. «Elm» nəşriyyatı. Bakı -1983.

7. fotobank.az İnternet saytı

Qeyd üçün

Cəmil Tağıyev
"Xan qızı..."

Nəşriyyat direktoru: Musa Ələkbərli
Redaktoru: Vasif Süleyman
Korrektoru: Kəmalə Cəmilqızı
Texniki redaktoru: Azər Tağıyev
Yığıcı: Lətafət Zəngilanlı
Dizayner: Eynulla Orucəliyev

"Şur" nəşriyyatı

Yığılmağa verilmiş: 2. 09. 2011
Çapa imzalanmış: 30. 09. 2011
Nəşrin formatı: 84X108
Həcmi: 6,5 ç.v.
Sayı: 500 nüsxə
Sərbəst qiymət

"Şur" nəşriyyatı
Bakı, Xaqani 19.
Tel: 498-69-48

Az-264443



CƏMİL VƏLİ OĞLU TAĞIYEV

kəndində anadan olub. Orta təhsilini rayon mərkəzindəki 1 saylı məktəbdə tamamlayıb.

1948-50-ci illərdə Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, sonra Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini (qiyabi) bitirib.

Müəllimlik fəaliyyətinə rayonun Şayıflı kənd məktəbində başlayıb. 58 illik pedaqoji fəaliyyətinin xeyli hissəsini direktor müavini və direktor vəzifəsində çalışıb.

1993-cü ildə Zəngilan erməni-rus silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra Bakı şəhərinin Nəsimi rayonunda məskunlaşıb. Bu rayondakı 46 saylı orta ümumtəhsil məktəbində rus bölmələrində Azərbaycan dili müəllimi işləyib.

"Təlimi rus dilində olan orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi məsələləri" adlı dərs vəsaitinin və Aşıq Məhəmməd Bağbanın həyat və yaradıcılığından bəhs edən «Yaddaşlardan yığılan kitab»ın müəllifidir. «Xan qızı...» C. Tağıyevin sayca üçüncü kitabıdır.

2010-cu ildə Cəmil Tağıyev «Əsrin ziyalısı-ilin müəllimi» fəxri diplomu ilə təltif edilib.